

# Putin Qarabağa görə Təhlükəsizlik Şurasını topladı

*Rusiya Prezidenti Vladimir Putin Təhlükəsizlik Şurasının üzvləri ilə operativ müşavirə keçirib. "Unikal" Rusiya KİV-ə istinadən xəbər verir ki, bu barədə Rusiya liderinin mətbuat katibi Dmitri Peskov bildirib.*

Səh.2


UNİKAL

№28 (2113) 05 avqust 2022-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




# "Ermənilər cavab zərbələri almağa hazır olsunlar"

## Tofiq Zülfüqarov: "Onlar açıq bəyan ediblər ki, 30 ildə davam etdirdikləri işğalçılıq siyasətini yeni şəraitdə davam etdirmək niyyətindədirlər"

*Azərbaycanın keçmiş xarici işlər naziri, politoloq Tofiq Zülfüqarov "Unikal"a müsahibə verib. O, son günlər erməni silahlı dəstələrinin Azərbaycan Ordusunun bölmələrinə qarşı terror-təxribat əməli törətməsinin səbəblərindən, Rusiya-Ukrayna müharibəsinin nə zaman başa çata biləcəyindən, ABŞ Konqresinin Nümayəndələr Palatasının sədri Nensi Pelosinin Tayvana səfərindən və s. məsələlərdən danışıb. -Son vaxtlar Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun bölmələrini atəşə tutur və vəziyyəti gərginləşdirir.*

Səh.4



Səh.9

# "Qisas" əməliyyatı ermənilər üçün son xəbərdarlıqdır

## Misir Mərdanovun yeni sevdası...



*Prezident "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərman imzaladı və Təhsil Nazirliyinin adı dəyişdirilərək Elm və Təhsil Nazirliyi adlandırıldı. Bundan başqa, fərmana əsasən, elm sahəsində dövlət siyasətinin və tənzimlənmənin*

Səh.6

## Səfər Mehdiyevin iki yaxın qohumu işdən çıxarıldı



*Dövlət Gömrük Komitəsinin sabiq sədri Səfər Mehdiyevin yaxın qohumları işdən çıxarılıb. "Unikal"ın əldə etdiyi məlumata görə, Dövlət Gömrük Komitəsinin (DGK) sədri vəzifəsini icra edən gömrük xidməti general-leytenantı Şahin Bağırovun əmri ilə "Azərterminalkompleks" İstehsalat Birliyinin rəis müavini...*

Səh.2

## Məhkəmələrdə ədalət tam təmin olunmalıdır!



*Azərbaycan hüquqi dövlət olduğundan, ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsi prioritetdir. İnsanların hüquqlarının qorunması, azadlıqlarının müdafiəsi istiqamətində qanunvericilikdə kifayət qədər müddəalar yer alıb. Bəs görəsən bu istiqamətdə görüləcək daha hansı işlərə ehtiyac var?*

Səh.11

# Qalmaqal: "Kim Şəbnəmin həyatını arzulayar ki?"



***"Şəbnəm Tovuzlunun ifasında dinlədiyim mahnılar var. Amma o, ikili oyun oynayır. Çox sünidir, özü deyil, pafosludur. Kim Şəbnəmin həyatını arzulayar ki? Elə bilirsiniz, həyatında çox xoşbəxtdir? Deyil, sadəcə görüntüdür. Onunla 5-6 il birlikdə çörək kəsmişik, evinə gedib-gəlmişəm.***

Müğənni Nüşabə Musayeva bu haqda Tarix Əliyevin "Tam səmimi" yutub layihəsində deyib.

"Bir ara Şəbnəmlə çox yaxın olmuşuq, Sonra özü kənarlaşdı məndən. Hacı ilə tanış olduğu ərəfələrdə uzaqlaşdı. Hacını 2002-ci ildən tanıyıram. O vaxt onların yanında başqa bir dükanda satıcı işləmişəm. Onlar da bir neçə qardaşdır. Kostyum mağazası işlədirdilər. Yəni, o vaxtdan tanıyıram. Şəbnəm də bilmirəm, qısqanclıqmı yarandı, ya nə, uzaqlaşdı məndən. Bilmirəm nə fikirləşdi. İndi vatsapda blokdadır. Ondan zəhləm gedir. O qızı sevmirəm. Çünki vaxt var idi, onu çox istəmişəm. Ondan çox incimişəm".

Nüşabə Şəbnəmlə aralarında yaşanan sonuncu mübahisəni belə xatırlayır: "Sonuncu dəfə Könül Kərimovanın övladının toyunda Şəbnəm ifa edirdi, mən də yanında oynayırdım.Manaf Ağayev, Mənzurə Musayeva və Zenfira İbrahimova da rəqs edirdi. Şəbnəm əli ilə məni itələyib, Zenfiranın əlindən tutub oxuya-oxuya getdi qabağa. Onda dedim ki, vaxt gələcək sənin cavabını çox pis verəcəyəm. Şəbnəmin haqqında belə danışmaq lazımdır. Bu sözlərə layiqdir. Dostluğu bacarmır, maskadır, yaxşılıq bilməyən, çörəyə dəyər verməyən biridir. Şəbnəmlə barışmağım qeyri-mümkündür. Harada görürəmsə, ona sataşıram".

# "Boşanmışam deyə özümə "stop" qoymalıyam?" - Rəqqasə Renka

***"Uşaqlarımın atası ilə o vaxt ayrılanda lap pis baxırdılar. Hətta bir il qızımdan gizli saxladıq. O, öz həyatını yaşadı, mən isə öz həyatımı. Həmişə demişəm, deyəcəm də. Çox sağol ki, belə gözəl balalar mənə verdin".***

Bu sözləri rəqqasə Rəna Ağamuradova (Renka) sosial media hesabında yazıb. O, cəmiyyətdə boşanmış qadınların növbəti dəfə ailə həyatı qurmasına birmənalı baxılmadığını vurğulayıb:



"Qaldı ki, boşanmış qadın Azərbaycanda dəhşət. Boşandın bir vay, bir uşaqla səni alan kimdir, sənə yiyə duran kimidir? Başa düşmədim, mənim özümə nə gəlib? Məgər o qədər zəifəm? İkinci dəfə bir uşaqla evləndim, vay utanmır, övladı var ərə gedir. Başa düşmədim, mən adam deyiləm? 26-27-28 yaşında boşanmışam, demək artıq özümə "stop" qoymalıyam? Mən də qadınam, qayğı, nəvaziş, adi evdə divara mismar vurub xırda şeylərə mənə dəstək olmağını istəyirəm. Vay-vay yazıq oğlan boşanmış qız alıb, ailəsi ondan imtina edib, həyatı puç oldu. Niyə axı, niyə? Niyə biz xoşbəxt ola bilmirik? Niyə biz burnumuzu başqasının həyatına soxmalıyıq?".

# Fatimə Türkiyədə əməliyyat olunacaq



***Rəqqasə Fatimə Fətəliyeva səhhətində yaranan problem səbəbində Türkiyədə əməliyyat olunacaq.***

"Unikal" axşam.az-a istinadən xəbər verir ki, bu barədə rəqqasə xəstəxanadan video paylaşaraq deyib.

"Vaxtında gəlməsəydim ciddi nəsə ola bilərdi. Bu da savadsız həkimlərimiz ucbatından baş verdi. Düşünməyin ki estetik etdirirəm, xeyr. Tamamilə başqa bir əməliyyatdır. Təəssüflər olsun ki, bəzi savadsız həkimlər hələ də Bakıda çalışırlar. Ona görə də gəldim İstanbula. Bir azdan məni əməliyyata alacaqlar. İnşallah, hər şey yaxşı olacaq" - deyə, o, bildirib.

# "Bilmirdilər ki, ən böyük kompleksimlə döyüşürəm" - Elməddin Cəfərov



***Aktyor Elməddin Cəfərov keçmiş komplekslərindən danışıb.***

"Maqazin Plus"a müsahibə verən sənətçi karyerasına başladığı vaxtlarda çətin anlar yaşadığını bildirib:

"Ən böyük kompleksim videokamera, şəkil çəkdirmək, kütlə içində oturmaq və çıxış etmək olub. Allah elə etdi ki, işim bunlardan keçdi. O kompleksləri məcbur aşmalı oldum. Amma "Tək səbr"də onu heç kim başa düşmürdü, hamı gülürdü. Bilmirdilər ki, ən böyük kompleksimlə döyüşürəm".

# Afşinlə video çəkib Zaura səsləndi



***Klarnet ifaçısı Hüseyn Məhəmmədoğlu sosial media hesabında paylaşdığı video ilə diqqət çəkib.***

O, müğənni Afşin Azərini göstərərək aparıcı Zaur Kamala səslənib. "Ay Zaur, gör kim var burada?" deyə, Hüseyn kameranı Afşinə tərəf çevirib. İfaçı isə sadəcə gülümsəməklə kifayətlənib.

Qeyd edək ki, bir müddət əvvəl "Həmin Zaur" proqramında qonal olan Afşinlə Zaur arasında gərginlik yaranmışdı. Nəticədə Zaur onu efirdən qovmuşdu.

# "Bir həftədir yoluxmuşam, analiz verməyə getmirəm" - Şeyx Əbdül

***Xalq artisti Əbdül Mahmudovun (Şeyx Əbdül) səhhəti pisləşib.***

Bu haqda aktyor baku.ws-ə açıqlamasında deyib. O, bir həftədir tənəffüs sistemində problemlər olduğunu və evdə xəstə yatdığını deyib:

"Bu xəstəliyə bir həftədir yoluxmuşam. Analiz verməyə getmirəm. Amma məndə virusun simptomları olduğunu bilirəm. Çünki müəyyən əlamətləri var.

Hərarətim 38.4, 38.5-dir. Bunlar həmin xəstəliyin əlamətləridir. Üstəlik soyuqdəymən də var. Bayıra çıxa bilmirəm. Ancaq evdə müalicə alıram.

Hazırda sistemlər asıblar. Əvvəlki günlərə baxanda iynələr, müalicələr sayəsində bir az düzəlmişəm".



## "İrəvanın başına zərbə dəydikcə daha tez tərpənir" - Elxan Şahinoğlu

***Ermənistanın Azərbaycana qarşı təxribatları cavabsız qalmadı. Azərbaycan Ordusunun keçirdiyi ”Qisas” cavab əməliyyatından sonra İrəvan sözün həqiqi mənasında çalxalandı. Bu gün təxribatçıların cəzalandırılması ilə bağlı Nikol Paşinyan səviyyəsində anormal fikirlər səslənidirilib. Hətta erməni baş nazir Laçın dəhlizi məsələsinə də toxunaraq həyəcanlı açıqlamalar verib.***

Məsələni şərh edən politoloq Elxan Şahinoğlu deyib ki, Laçın yolu yalnız dəhliz deyil, Ermənistandan Qarabağa uzanan qaz boru xətti və elektrik xətləri də buradan keçir.

- Başqa sözlə Azərbaycan ordusu Laçın dəhlizini nəzarətə götürməklə həm də vaxtilə qanunsuz çəkilən kommunikasiya xətlərini nəzarətə götürəcək. İrəvan məhz buna görə Laçına alternativ yola keçidi uzatmaq istəyir. Ancaq qısa müdddətdə alternativ yoldan Qarabağdakı ermənilərə qaz boru xətti çəkə bilməyəcəklər. Belə bir istəkləri olsa belə bu dəfə biz buna imkan verməyəcəyik. Bunu İrəvan da anlamamış deyil. Əslində Ermənistanın baş naziri Nikol Paşinyan alternativ yol reallığını qəbul edib. Ona görə bu gün açıqlama veriblər ki, Ermənistan tərəfdən yolun tikintisini payıza qədər bitirəcəklər. Halbuki, bir neçə gün əvvəl bəyan etmişdilər ki, yolun tikintisinə sentyabr ayından başlayacaqlar. Paşinyan dünənki toqquşmadan sonra başqa bir “etiraf” da səsləndirib: “Qarabağda Ermənistan hərbçisi yoxdur”. Halbuki, Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriroqyan bir neçə gün əvvəl Paşinyanın təlimatıyla bəyan etmişdi ki, “sentyabra qədər hərbçilərimizi Qarabağdan çıxaracağıq”. Demək başlarına zərbə dəydikcə daha tez tərpənirlər,- ekspert qeyd edib.

Elxan Şahinoğlunun sözlərinə görə, Nikol Paşinyan çarəsizdir. Bugünkü açıqlamasında ibarələrlə Rusiyanı hədələyib ki, Qarabağda yerləşən rusiyalı sülhməramlıların mandatı müəyyənləşməsə beynəlxalq təşkilatlara müraciət edəcək.

- Beynəlxalq təşkilatlar Azərbaycanın istəyi olmadan nə edə bilər ki? Müxtəlif problemlər məngənəsində sürünən BMT Qarabağa sülhməramlı göndərmək və ya rusiyalı sülhməramlıları əvəz etmək durumunda deyil. Paşinyan erməni cəmiyyətinə mesaj verir ki, rusiyalı hərbçilər Azərbaycan ordusunun Qarabağda mövqelərini möhkəmlənməsinə mane olmurlar. Biz rusiyalı hərbçilərin “mandat” mövzusunu ona görə müzakirə etmirik ki, onların bölgədə varlığı müvəqqətidir, 3 il yarımdan sonra Qarabağı tərk etməli olacaqlar. Əsas hədəfimiz budur. Ermənilər isə qorxularından bu mövzu barədə danışmaq istəmirlər, bir-birlərindən açıq şəkildə soruşmurlar ki, “rusiyalı hərbçilər Qarabağı tərk etdikdən sonra nə edəcəyik?”.

# Mərkəzi Bankın bəzi məmur şirkətlərinə xəbərdarlığı

## Ölkənin baş bankına hər il daxil olan 3 min şikayətin pərdəarxasında nələr var?

***Son günlər Azərbaycanda fəaliyyət göstərən bəzi sığorta şirkətləri ilə bağlı narazılıqlar xeyli güclənib. Xüsusilə yol-nəqliyyat hadisələri ilə bağlı sürücülər adətən sığota şirkətlərinin zəif fəaliyyətindən şikayətlənirlər. Bundan başqa bir sıra sığortaçıların müraciət etmiş şəxslə avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası (AVSMMİS) üzrə müqaviləni bağlamaqdan imtina etməsi ilə bağlı şikayətlər artıb.***

Yola salmaq üzrə olduğumuz həftə Azərbaycan Mərkəzi Bankının Baş direktoru Ziya Əliyev müsahibəsində bildirib ki, heç bir sığorta AVSMMİS üzrə müqaviləni bağlamaqdan imtina edə bilməz. Onun sözlərinə görə, ən vacib məsələ, sığortalı dəymiş zərərlə əlaqədar sığortaçının apardığı qiymətləndirmə nəticələrinin ona verilməsini tələb etmək hüququ vardır. “Əgər sığortalı ona dəymiş zərərlə əlaqədar sığortaçının müəyyən etdiyi ödəniş məbləği ilə razılaşmırsa o zaman müstəqil ekspertizanın keçirilməsini tələb edə bilər. Zərərçəkən tərəf zərər qiymətləndirildikdən sonra hadisə üzrə sənədlərdən sonuncusu verildikdən sonra 7 iş günü müddətində dəymiş zərər məbləğinə uyğun sığorta ödənişinin verilməsini tələb etməlidir. Həmin müddətdə ödəniş həyata keçirilmədikdə gecikdirilmiş hər gün üçün dəbbə pulu da tələb oluna bilər. Sığortalının bütün bu hüquqlarının təmin edilməsi sığortaçının vəzifəsidir”, - Z. Əliyev vurğulayıb.

O qeyd edib ki, sığortalıların hüquqları sığortaçılar tərəfindən pozulduğu halda Azərbaycan Mərkəzi Bankına müraciət etmək hüquqları var. Belə ki, hər il 3 minə yaxın şəxs bu hüquqdan yararlanaraq Mərkəzi Banka müraciət göndərir.

Bəzi ekspertlər Mərkəzi Bankın Baş direktorunun bu sözlərini sığorta şirkətlərinə xəbərdarlıq kimi qiymətləndirir. Hesab edilir ki, əksəriyyətinin arxasında müəyyən məmurların dayandığı belə şirkətlər bu xəbərdarlığı düzgün oxumayacaqları və doğru qiymətləndirməyəcəkləri təqdirdə onların qanunvericiliyin tələblərinə uyğun şəkildə sərt cəzalandırılmaları qaçılmazdır.

Bundan başqa, sığortaçılardan hər il ölkənin baş bankına 3 minə yaxın müraciətin daxil olması düşündürücü məqam sayılır. Nəzərə alanda ki, həmin müraciətlərin motivini sığortalıların hüquqlarının sığortaçılar tərəfindən pozulması təşkil edir, deməli söhbət illik 3 minə yaxın şikayətdən gedir. ”Bu isə kifayət qədər yüksək rəqəmdir və hələ də Azərbaycanın sığorta bazarında ciddi problemlər var. Onların həlli yubanarsa biz gələcəkdə bu cür şikayətlərin sayının daha da yüksələcəyini müşahidə edəcəyik” deyə ekspertlər vurğulayırlar.

Təkcə bir nüansı xatırladaq. Bu günlərdə nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı yerli mətbuata bildirib ki, Azərbaycanda sığorta sistemi bizim arzuladığımız səviyyədə deyil. Sitat: ”İnsanları incitməkdən başqa heç bir iş görmürlər. Bu gün nümunə üçün xoş heç nə yoxdur ki, onu sığorta şirkətlərinin etdiyini deyək. Azərbaycan qanunvericiliyində “İcbari sığortalar haqqında” Qanunda xüsusi bir müddəa var ki, sığorta şirkətləri illik gəlirlərinin bir faizini təbliğat-təşviqat işinə həsr etməlidirlər. Burada söhbət ondan getmir ki, sırf yol-hərəkəti qaydaları təbliğ olunmalıdır. Yanğın təhlükəsizliyi, təbii fəlakət kimi mövzularda da sığorta hadisəsi varsa, təbliğat vasitəsilə vətəndaşlara başa salmalıdırlar ki, gələcəkdə sığorta hadisəsi azalsın. Ancaq bunlar təbliğat işinə pul xərcləmək əvəzinə yalnız zərərçəkənin “boğazından kəsməklə” məşğuldurlar. Bizim hesablamamıza görə, həmin məbləğ 1milyon manat həcmindədir. Həmin məbləğ əsasında hansısa sığorta şirkəti tərəfindən bir sosial çarx təqdim olunubmu?! Mən hələ rast gəlməmişəm. Yol polisinin nümayəndəsi də dedi ki, “şəxsən bizə də müraciət etməyiblər”. Özləri dəftər, qələm, bukleti bir çantaya qoyurlar və orta, ali məktəblərdə, yaxud hansısa bir tədbirdə paylaşırlar, adını da qoyurlar təbliğat apardıq. Yaxud da sosial şəbəkə hesablarında nəsə bir şəkil paylaşırlar, hesab edirlər ki, bu təbliğatdır”.

Ekspert əlavə edib ki, ”sığorta şirkəti mənim maşınımı normal şəkildə qiymətləndirdi, təmir etdi, razıyam” söyləyən kimsə ilə bircə dəfə də qarşılaşmayıb: ”Deyirlər ki, 3 min manat xərci vardı, 2000-1500 manat verdilər. Hər dəfə bir problem olur. Süründürməçilik, bürokratik əngəllər aradan qalxmalıdır...”




Bənzər tənqidləri, iradları sadə vətəndaşdan tutmuş ekspertlərədək çoxlarının dilindən eşitmək olar. Lakin təəssüf ki, illər keçdikcə biz bu cür tənqidlərin, şikayətlərin, giley-güzarların azalmasını, səngiməsini yox, artdığını müşahidə edirik. Hesab edilir ki, burada bəzi sığorta şirkətlərinin müəyyən məmurlar tərəfindən himayə edilməsi, həmin şirkətlərin özlərini, az qala, toxunulmaz sayması ilə yanaşı Mərkəzi Bankın keçmiş rəhbərliyinin qeyri-effektiv fəaliyyətinin də rolu qeyd olunmalıdır.

Real durum ölkənin sığorta bazarında sağlamlaşdırma addımlarının atılması üçün zamanın çoxdan çatdığını göstərir. Ümid edək ki, tezliklə biz belə addımların şahidi olacağıq. Elə Mərkəzi Bankın Baş direktorunun sözləri də bu ümidləri artırır...

***Murad İbrahimli***

# "Qisas" əməliyyatı ermənilər üçün son xəbərdarlıqdır

## Azərbaycan Ordusu qanunsuz erməni silahlı dəstələrini öz ərazilərindən çıxarmaq üçün maksimum səy göstərəcək

***Xəbər verildiyi kimi, Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri 10 noyabr 2020-ci il tarixli Bəyanatın müddəalarını kobud şəkildə pozaraq avqustun 3-də Azərbaycan Ordusunun bölmələrinə qarşı terror-təxribat əməli törədib. Terror-təxribat nəticəsində hərbi qulluqçumuz əsgər Kazımov Anar Rüstəm oğlu şəhid olub.***

Bundan əlavə, qeyri-qanuni erməni silahlı dəstələrinin ünsürləri Kəlbəcər və Laçın rayonlarının ərazisini əhatə edən dağ silsiləsində yerləşən Qırxqız yüksəkliyini ələ keçirmək və orada yeni döyüş mövqelərini qurmağa cəhd göstərib. Müdafiə Nazirliyinin məlumatında bildirilib ki, Azərbaycan Ordusu bölmələrinin keçirdiyi "Qisas" cavab əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklər nəzarətə götürüb. Hazırda bölmələrimiz tərəfindən əlverişli hədlərdə yeni mövqelərin qurulması və təminat yollarının çəkilməsi üzrə mühəndis işləri görülür.

Əməliyyat çərçivəsində qeyri-qanuni erməni silahlı ünsürlərinin bir neçə döyüş mövqeyi dağıdılıb, keçmiş Ağdərə rayonunun Yuxarı Oratağ yaşayış məntəqəsindəki hərbi hissəyə havadan zərbə endirilib. Nəticədə, qanunsuz erməni silahlılarının canlı qüvvəsi məhv edilib və yaralanıb, həmçinin bir neçə D-30 haubitsası, hərbi nəqliyyat vasitələri və çoxlu sayda döyüş sursatları məhv edilib.

Azərbaycan Respublikası dəfələrlə bildirmişdir ki, üçtərəfli bəyanata zidd olaraq Ermənistan silahlı qüvvələrinin və qanunsuz erməni silahlı birləşmələrinin Rusiya Federasiyası sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində mövcudluğu təhlükə mənbəyi olaraq qalır. Həmin ərazilərin delimitarizasiyası, Ermənistan qoşunlarının oradan tam çıxarılması və qanunsuz erməni silahlı ünsürlərinin tərksilah edilməsi mütləq şəkildə labüddür.

Müdafiə Nazirliyi bəyan edib ki, Azərbaycan Respublikasının Konstitusiyasını rəhbər tutaraq bundan sonra ölkəmizin suveren ərazilərində törədiləcək istənilən terror və təxribatın qarşısı qətiyyətlə alınacaq və əks cavab tədbirləri daha da sarsıdıcı olacaq.

Dünən Azərbaycan Ordusunun keçirdiyi "Qisas" əməliyyatından sonra Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində, o cümlədən dövlət sərhədində nisbi sakitlikdir. Əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

Məsələylə bağlı "Unikal"a açıqlamasında politoloq Qabil Hüseynli deyib ki, "Qisas" əməliyyatının keçirilməsi labüd idi, çünki Azərbaycan ərazisində yerləşdirilən və Rusiya sülhməramlıları tərəfindən müdafiə edilən qanunsuz erməni silahlı dəstələri müntəzəm olaraq atəşkəs rejimini pozurdular. Onun fikrincə, nəticədə Azərbaycan Ordusu üçün ciddi problemlər yaradırdılar. O bildirib ki, 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın şərtlərinin pozulması halları özünü tez-tez göstərirdi: "Erməni qaçaq-quldur dəstəsi müxtəlif siyasi manevrlərdən istifadə edərək və yalanlar uyduraraq Azərbaycan ərazilərini tərk etmək istəmirdilər. Ötən gün ermənilərin yenə təxribat törətməsi və nəticədə əsgərimizin şəhid olması Azərbaycan Ordusunun hərəkətə keçməsi üçün bir siqnal oldu. Ordumuz müxtəlif istiqamətlərdə antiterror əməliyyatı həyata keçirdi. Erməni qaçaq-quldur dəstəsinə zərbə vuruldu və şəhidimizin qisası alındı. Üstəlik, ermənilərə başa salındı ki, imzalanmış kapitulyasiya aktının müddəalarına əməl etməsəniz, Azərbaycan Ordusu qanunsuz erməni silahlı dəstələrini öz ərazilərindən çıxarmaq üçün maksimum səy göstərəcək. Hələ ki, Ordumuz dayanıb, amma Ermənistan tərəfinin yeritdiyi siyasət bundan sonra da davam edəcəksə, Azərbaycan Ordusu qisas əməliyyatlarını davam etdirəcək. Bizim Xankəndinin mülki əhalisi ilə heç bir işimiz yoxdur. Həmin şəxslər Azərbaycan vətəndaşlığını qəbul etdikdən sonra dövlətimiz tərəfindən onların təhlükəsizliyi təmin olunacaq. Bizim işimiz Azərbaycana qarşı işğal siyasəti yürütmüş adamlarladır. Biz bu işi davam etdirəcəyik", - deyə o qeyd edib.

Milli Məclisin deputatı Mahir Abbaszadə deyib ki, 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladığı üçtərəfli Bəyanat ölkəmizin qələbəsi və üstünlüyü göstərən bir sənəddir. Onun fikrincə, Bəyanat çoxillik münaqişənin nizamlanmasına imkan verir: "Lakin Ermənistanın hər zamankı kimi qeyri-konstruktiv mövqe göstərməsi və bəyanatın imzalanmasından keçən 2 ilə yaxın müddətə baxmayaraq üzərinə götürdüyü öhdəliklərə əməl etməkdən boyun qaçırması, qeyd edilən müddətdə dəfələrlə təxribat törətməsi dövlətimizi zəruri addımlar atmağa vadar edir. Bu gün Azərbaycan ordusu tərəfindən düşmənin terror-təxribat əməlinə layiqli cavab verilməsi bunun əyani sübutudur. Qeyri-qanuni erməni silahlı dəstələrinin ünsürləri Kəlbəcər və Laçın rayonlarının ərazisini əhatə edən dağ silsiləsində yerləşən Qırxqız yüksəkliyini ələ keçirməyə və orada yeni döyüş mövqelərini qurmağa cəhd göstərib. Azərbaycan Ordusu bölmələrinin keçirdiyi "Qisas" cavab əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklər nəzarətə götürülüb. Hazırda bölmələrimiz tərəfindən əlverişli hədlərdə yeni mövqelərin qurulması və təminat yollarının çəkilməsi üzrə mühəndis işləri görülür".

M.Abbaszadə onu da qeyd edib ki, əməliyyat çərçivəsində qeyri-qanuni erməni silahlı ünsürlərinin bir neçə döyüş mövqeyi dağıdılıb, keçmiş Ağdərə rayonunun Yuxarı Oratağ yaşayış məntəqəsindəki hərbi hissəyə havadan zərbə endirilib: "Nəticədə, qanunsuz erməni silahlılarının canlı qüvvəsi məhv edilib və yaralanıb, həmçinin bir neçə D-30 haubitsası, hərbi nəqliyyat vasitələri və çoxlu sayda döyüş sursatları məhv edilib. Terror-təxribat nəticəsində şəhid olmuş hərbi qulluqçumuz əsgər Kazımov Anar Rüstəm oğluna Allahdan rəhmət, yaxınlarına dərin hüznlə başsağlığı veririk. Ermənistan tərəfi qəbul etməlidir ki, bəyanatın müddəalarını nümayişkəranə şəkildə pozması və onun tələblərinə əməl etməməsi nəticəsində bir daha ağır məğlubiyyətə düçar olacaq. Yaşasın, Müzəffər Ali Baş Komandan! Var olsun, rəşadətli Azərbaycan ordusu! Qarabağ Azərbaycandır".

"Azad olunan Sarıbaba və Qırxqız yüksəklikləri Laçın dəhlizi ətrafında Azərbaycan Ordusunun həm vizual, həm də atəş-nəzarət imkanlarını kifayət qədər gücləndirir". Bunu "Unikal"a açıqlamasında hərbi ekspert Ədalət Verdiyev deyib. O bildirib ki, sözügedən ərazilərin gələcəkdə keçirilməsi mümkün olan antiterror əməliyyatlarında böyük əhəmiyyəti olacaq: "Yaxın perspektivdə isə Sarıbaba və Qırxqız yüksəklikləri qanunsuz erməni silahlı dəstələrinin Azərbaycan ərazilərindən çıxarılmasında istifadə olunacaq. Antiterror əməliyyatının davam etməsi isə Azərbaycandan asılı deyil. Bu, daha çox Ermənistan tərəfinin davranışlarından asılı olacaq. Yəni, Ermənistan tərəfi üçtərəfli bəyanatla üzərinə götürdüyü öhdəlikləri yerinə yetirərsə, Azərbaycan Ordusu tərəfindən hər hansı əməliyyatın keçirilməsinə zərurət yaranmaz. Digər bir tərəfdən, əgər Ermənistan vaxt uzadaraq prosesləri ləngitməyə davam edərsə, o zaman hərbi əməliyyatların növbəti mərhələlərinin keçirilməsi də mümkündür", - deyə o qeyd edib.



Milli Cəbhə Partiyasının sədri, millət vəkili Razi Nurullayev Azərbaycan ordusunun qisas əməliyyatını dəstəkləyir və şanlı ordumuza uğurlar arzulayır. Onun fikrincə, Qarabağda silahlı erməni ünsürlərinin çıxarılması və tərksilah olunması üçün birliyimiz vacibdir: "Bizim bu işlərdə ən effektiv köməyimiz bu sahədə aparılan siyasətə dəstək olmaqdır və bunu edək. Qarabağ məsələsində iqtidar-müxalifət məsələsi, ac-tox məsələsi, yaxşı məmur-pis məmur, yaxşı oğlan-pis oğlan, razı-narazı məsələləri olmamalıdır. Bu məsələlər başqa müstəvilərdə müzakirənin mövzusudur. Elə başqa müstəvilərdə də müzakirə edilir, dartışılır, tənqid edilir və ya öyülür. Qarabağ məsələsində isə hamımızın bir amalı var: Qarabağ Azərbaycandır! Azərbaycan ərazisində meydan sulayan qeyri-qanuni erməni silahlı qüvvələrinin çıxarılması, o cümlədən separatçı silahlı erməni birləşmələrinin tərksilah olunması normallaşma prosesi üçün əsas şərtlərdən biridir. Onun üçün də ordumuza və Prezidentə dəstək olaq ki, onlar bu işi uğurla başa çatdırsınlar. Yavaş-yavaş olsa da Xankəndiyə yaxınlaşırıq, separatçı qüvvələrin ayaqları altından isə torpaq qaçır".

***Z.Məmmədli***

# Putin Qarabağa görə Təhlükəsizlik Şurasını topladı



***Rusiya Prezidenti Vladimir Putin Təhlükəsizlik Şurasının üzvləri ilə operativ müşavirə keçirib.***

”Unikal” Rusiya KİV-ə istinadən xəbər verir ki, bu barədə Rusiya liderinin mətbuat katibi Dmitri Peskov bildirib.

“Ermənistan-Azərbaycan münaqişəsinin kəskinləşməsi ilə bağlı vəziyyət müzakirə edilib. Üçtərəfli müqavilənin bütün müddəalarının yerinə yetirilməsinin təkidli zəruriliyi vurğulanıb”, - Peskov qeyd edib.

# Səfər Mehdiyevin iki yaxın qohumu işdən çıxarıldı



***Dövlət Gömrük Komitəsinin sabiq sədri Səfər Mehdiyevin yaxın qohumları işdən çıxarılıb.***

”Unikal”ın əldə etdiyi məlumata görə, Dövlət Gömrük Komitəsinin (DGK) sədri vəzifəsini icra edən gömrük xidməti general-leytenantı Şahin Bağırovun əmri ilə ”Azərterminalkompleks” İstehsalat Birliyinin rəis müavini Zeynal Tarquluyev və Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük idarəsinin şöbə rəisi Rəfail Niftəliyev vəzifəsindən azad edilib.

Qeyd edək ki, Zeynal Tarquluyev Səfər Mehdiyevin qaynı, Rəfail Niftəliyev isə baldızı oğludur.

***Orxan Həsənli***

# “Seçicilərin razılığı vacibdir” - MSK sədri



***”Dairə seçki komissiyalarının sərhədlərini dəyişəndə bəzi problemlər meydana çıxır”.***

Bunu Mərkəzi Seçki Komissiyasının (MSK) bu gün keçirilən iclasında Komissiya sədri Məzahir Pənahov bildirib.

O qeyd edib ki, mümkün qədər tez zamanda dairə seçki komissiyalarının sərhədinin dəyişməsinə çalışılır: ”Bəzi dairə seçki komissiyalarının sərhədlərini dəyişməyə məcburuq. Yerlərdə gərginlik yaranmamasına çalışmalıyıq. Seçicilərin razılığı və rahat olması vacibdir. Çünki başqa mənzərə yarana, ciddi gərginliyə səbəb ola bilər”.

Baş redaktor:
Zaur Əhməd

Turanbank” ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Futbol+” servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:1700

# Çavuşoğlu Blinkenlə Azərbaycan və Ermənistan arasında dialoqu müzakirə edib

***Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu ilə ABŞ dövlət katibi Entoni Blinken arasında telefon danışığı baş tutub.***

“Unikal” xəbər verir ki, ABŞ Dövlət Departementinin məlumatına görə, tərəflər regional məsələlər barədə fikir mübadiləsi aparıblar.

Türkiyə və ABŞ xarici siyasət idarəsinin rəhbərləri eyni zamamda Azərbaycan və Ermənistan arasında dialoqu müzakirə ediblər.

Blinken həmkarının diqqətinə çatdırıb ki, Vaşinqton Azərbaycan və Ermənistan arasında dialoqun asanlaşdırılmasına və uzunmüddətli danışıqlara nail olunmasına töhfə verməyə hazırdır.

# MSK-da yeni sruktur yaradılıb

***Mərkəzi Seçki Komissiyasının (MSK) bu gün keçirilən iclasında katibliyin strukturuna dair məsələyə baxılıb.***

”Unikal” xəbər verir ki, bu barədə MSK sədrinin müavini Rövzət Qasımov məlumat verib. O bildirib ki, komissiyanın tapşırığı ilə müasir dövrün tendensiyaları və hazırda respublikamızda gedən dəyişiklikləri öyrənərək katibliyin strukturunda müəyyən dəyişikliyə gedilib: “Bir sıra sahələr üzrə yeni formatda Katiblikdə müəyyən dəyişikliklər etməyə ehtiyac var. MSK artıq 35 minə yaxın dairə seçki komissiyası üzvlərinin və digər əməkdaşların sənədləşmə işləri ilə məşğul olur. Son illərdə respublikamızda əmək münasibətləri ilə bağlı bir




sıra islahatlar aparılıb. Yeni bir struktur vahidinə ehtiyac yaranıb. MSK-nın Ümumi şöbəsinin tərkibində yeni - İnsan resursları sektoru yaradılması məqsədəuyğun olardı”.

O qeyd edib ki, digər struktur vahidi isə komnukasiya ilə bağlıdır: ”Bu gün həyatımızda çoxsaylı yeniliklər -istər sosial şəbəkələr, istər onlayn platformalar yaranıb. Ona görə də MSK-nın Katibliyininin Media və ictimaiyyətlə əlaqələr şöbəsinin adının yenilənməsinə ehtiyac yaranıb. Həmin şöbənin adının Media və kommunikasiya şöbəsi olaraq dəyişdirilməsini təklif edirik”.

”Digər tərəfdən ölkədə siyasi partiyalarla bağlı bir sıra layihələr gəyata keçirilir. MSK da siyasi partiyalarla yaxın işləyən qurumlardan biridir. Məhz siyasi partiyaların fəaliyyətinin məğzi seçkilərdə iştirak etməkdir. Bütün bunları nəzərə alaraq MSK katibliyində yeni bir şöbənin yaradılması - Siyasi partiya və ictimai təsisatlarla iş şöbəsinin yaradılmasını təklif edirik”, - R.Qasımov vurğulayıb.

# Lavrov Ceyhun Bayramovla sıx təmasdadır - Rusiya XİN

***“Rusiyanın ali rəhbərliyi, xüsusən də xarici işlər naziri Sergey Lavrov Qarabağdakı vəziyyətlə bağlı Azərbaycan və Ermənistandan olan həmkarları ilə sıx təmasdadır”.***

“Unikal” xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin (XİN) yaydığı məlumatda deyilir.



XİN-dən bildirilib ki, Rusiya sülhməramlıları yerlərdə vəziyyətin sabitləşməsi üçün səylər göstərir. ”Hər iki tərəflə bütün səviyyələrdə, o cümlədən ölkənin ali rəhbərliyi ilə aktiv iş aparılır. Rusiyanın xarici işlər naziri Sergey Lavrov azərbaycanlı və erməni həmkarları ilə sıx təmasdadır”, - məlumatda qeyd olunub.

# Daha 150-dək müharibə əlilinə birdəfəlik ödəmə veriləcək

***Sənədləri e-sistemlərdə və arxivlərdə olmayan müharibə əlillərinin müvafiq hərbi-həkim komissiyalarına müraciətləri əsasında daha 150-dək şəxsin birdəfəlik ödəməni almaq hüququ təsdiqlənib.***

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən məlumat verilib.

Bildirilib ki, yaxın günlərdə onların da bank hesablarına ödəniş köçürüləcək: “Bu barədə hər birinə SMS göndəriləcək”.

Qeyd edək ki, Nazirlər Kabinetinin yeni təsdiq etdiyi Qaydaya uyğun olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Birinci Qarabağ müharibəsi əlillərinə



birdəfəlik ödəmələrin verilməsinə başlanılıb.

# Arzu Rəhimov vətəndaşları qəbul etdi

***Azərbaycan Respublikasının Prezidenti Ilham Əliyevin tapşırığına və mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərlərinin 2022-ci ilin avqust ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-polkovnik Arzu Rəhimov avqustun 4-də Xaçmaz şəhərində Siyəzən, Şabran, Xaçmaz, Quba və Qusar rayonlarından olan vətəndaşların qəbulunu həyata keçirib.***

”Unikal” xəbər verir ki, qəbuldan əvvəl ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət edilərək, önünə gül dəstəsi qoyulub.

Xidmət rəisi, general-polkovnik Arzu Rəhimovun keçirdiyi qəbulda 22 vətəndaşın müraciəti dinlənilib. Müraciətlər əsasən həqiqi hərbi xidmətə və ya işə qəbul, övladının xidmət yerinin müəyyənləşdirilməsi, veteran adı və vəsiqəsinin verilməsi, eləcə də digər məsələlər ilə bağlı olub.

Qəbul edilən vətəndaşların müraciətlərinin bir çoxu yerindəcə öz həllini tapıb, araşdırılmasına ehtiyac olan məsələlər qanunvericiliyə uyğun olaraq tədbirlər görülməsi üçün nəzarətə götürülüb. Bəzi vətəndaşlar tərəfindən qaldırılan və Xidmətin səlahiyyətlərinə aid olmayan müraciətlər isə aidiyyəti orqanlara çatdırılması üçün qeydiyyata alınıb.

Bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün daha rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

# Rəsmi Bakıdan Ermənistan XİN-ə cavab

***"Ermənistan XİN-in Azərbaycanı üçtərəfli bəyanatı pozmaqda ittiham etməsi riyakarlıqdan başqa bir şey deyildir".***

"Unikal" xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında əksini tapıb. "Xatırladırıq ki, Ermənistan tərəfindən üç ölkə liderlərinin imzaladığı 10 noyabr 2020-ci il tarixli bəyanatın müddəalarının yerinə yetirilmədiyi, xüsusilə də erməni silahlı dəstələrinin hələ də Azərbaycan ərazilərindən çıxarılmadığı dəfələrlə tərəfimizdən bəyan edilib. Üçtərəfli bəyanatın 4-cü maddəsinə əsasən "Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir". Qeyri-qanuni erməni silahlı qüvvələrinin Azərbaycan ərazilərində mövcudluğuna dair Azərbaycan tərəfində olan çoxsaylı dəlillərə əlavə olaraq, bu fakt erməni rəsmiləri tərəfindən də etiraf edilib. Belə ki, Ermənistan silahlı qüvvələrinin Baş Qərargah rəisinin müavini Saak Saakyanın bu il 29 iyun tarixində hərbi xidmətə çağırılan vətəndaşların valideynləri ilə görüşdə "Qarabağ bölgəsində erməni müddətli hərbi xidmətçilərinin müddətdən artıq həqiqi hərbi xidmət qulluqçuları ilə əvəzlənəcəyinə" dair söylədikləri, habelə Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın 19 iyul 2022-ci il tarixli müsahibəsində "Ermənistan silahlı qüvvələrinin bölmələrinin Qarabağdan çı-



xarılmasının bu ilin sentyabr ayında başa çatacaq" söyləməsi Ermənistanın üzərinə götürdüyü öhdəliklərə zidd olaraq, hələ də silahlı hərbi birləşmələrini qonşu dövlətin ərazisində qeyri-qanuni saxladığını bariz şəkildə göstərir.

Vurğulayırıq ki, yaşanan son gərginliyin səbəbi, məhz qeyri-qanuni erməni silahlı dəstələrinin Azərbaycan ərazilərində mövcudluğu və təxribatlara əl atmasıdır. 3 avqust tarixində Azərbaycan əsgərinin şəhid olması ilə nəticələnən qanlı insident də məhz Ermənistanın öhdəliklərinin yerinə yetirməməsinin nəticəsidir.

Üçtərəfli bəyanatın 6-cı bəndinə istinad edərək, Azərbaycanı müvafiq müddəanın pozuntusunda ittiham edən Ermənistan XİN-in diqqətinə çatdırırıq ki, Laçın dəhlizi üzrə yeni yolun inşası razılaşdırılmış marşrut üzrə artıq uzun aylardır ki, gedir və Ermənistan tərəfi bu yol ilə bağlı kifayət qədər məlumatlıdır.

Əgər Ermənistan tərəfi üçtərəfli bəyanatın digər müddəaları kimi bu öhdəliyin də həyata keçirilməsini müxtəlif bəhanələrlə ləngitmək məqsədini güdürsə, bu bir daha Ermənistanın qeyri-konstruktiv və üçtərəfli bəyanatların və digər razılaşmaların icrasına münasibətdə pozucu fəaliyyətinin bariz nümunəsidir.

Bölgədə sülh və sabitliyin təmin olunması, habelə münaqişə sonrası normallaşma üçün üçtərəfli bəyanatların tam icrası vacibdir. Azərbaycan, öz tərəfindən üzərinə götürdüyü öhdəlikləri tam yerinə yetirir və Ermənistan tərəfinin də bu öhdəliklərə əməl etməsini qətiyyətlə tələb edir.

Azərbaycanı "aqressiv fəaliyyətdə" ittiham edən Ermənistan XİN-ə xatırladırıq ki, hərbi birləşmələri 30 ilə yaxın qonşu dövlətin ərazilərinin işğalını həyata keçirən, işğal siyasətinə son verildikdən sonra hələ də qanunsuz silahlı dəstələrini Azərbaycan ərazilərindən çıxarmayan məhz Ermənistandır. Azərbaycan isə öz ərazilərinin təhlükəsizliyini və bütövlüyünü qanuni əsaslarla təmin edir", - bəyanatda vurğulanıb.

# Paşinyanın yalanı: Ermənistan sülh istəyirsə... - ŞƏRH

***Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin iclasında çıxış edərək yenidən Azərbaycana qarşı separatçılıq iddiaları irəli sürüb. Baş nazirin sözlərinə görə, 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatda "Dağlıq Qarabağ" müəyyən edilib. Bəyanat isə sadəcə Rusiya sülhməramlı kontingentinin yerləşdirilməli olduğu ərazini müəyyənləşdirib. Qarabağ Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisidir. Əgər Ermənistan sülh istəyirsə, ilkin şərt və istisnalar olmadan Azərbaycanın ərazi bütövlüyünü tanımalıdır.***



Bunu Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) İdarə Heyətinin sədri Fərid Şəfiyev Ermənistan və Azərbaycan arasında son hadisələr və sülh prosesini şərh edərkən bildirib. Onun sözlərinə görə, bundan əlavə Nikol Paşinyan bildirib ki, Ermənistan və Rusiya Azərbaycanın ərazisində yerləşdirilən Rusiya sülhməramlı kontingentinin mandatı ilə bağlı ikitərəfli razılaşma imzalayıb.

"Mandatı Rusiya Azərbaycanla razılaşdırmalıdır və təəssüf ki, Rusiya bu prosesdə konstruktiv deyil. Bütün erməni birləşmələrinin (nizami, nizamsız və s.) tam çıxarılmasının şərtləri üçtərəfli bəyanatın 4-cü bəndinə əsasən tam yerinə yetirilməlidir. Laçın dəhlizinə gəlincə, yeni marşrut eyni bəyanata uyğun olaraq 3 il ərzində hazır olmalıdır.

Azərbaycan qoyulan müddətdən əvvəl şərtləri yerinə yetirir. Ermənistan indiyədək istənilən proseslərə maneçilik törədib. Bütün istiqamətlərdə demək olar ki, konkret irəliləyiş qeydə alınmayıb. Ermənistan prosesi qeyri-müəyyən müddətə təxirə salmaq taktikasına əl atır və geosiyasi hadisələrin öz xeyrinə dönüşünü gözləyir. Oxşar taktika 2-ci Qarabağ müharibəsindən əvvəl də tətbiq edilmişdi və uğursuzluqla nəticələnmişdi".

F. Şəfiyev qeyd edib ki, indiyə qədər Ermənistanla Azərbaycan arasında danışıqlarda hər bir irəliləyiş Azərbaycanın təşəbbüsü və təzyiqi ilə əldə edilib. Azərbaycanın təklif etdiyi beş bənd sülh prosesinin irəlilənməsi üçün vacibdir.

**Sülh prosesinə gəldikdə, bu baxımdan 4 əsas istiqamət mövcuddur:**

1. Ermənistan və Azərbaycanın ərazi bütövlüyünə (təbii ki, Qarabağ regionu Azərbaycanın tərkibi kimi qəbul edilməklə) əsaslanan sülh müqaviləsi və gələcəkdə ərazi iddialardan imtina;
2. Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiya və demarkasiyası;
3. Nəqliyat-kommunikasiya xətlərinin açılması və iqtisadi inteqrasiya;
4. Humanitar məsələlər, o cümlədən minaların təmizlənməsi, itkin düşmüş şəxslər, əsirlər, mədəni irs (həm Ermənistan, həm də Azərbaycanda), iki etnik qrup arasında barışıq, qaçqın və məcburi köçkünlərin geri qaytarılması və s. məsələlər.

**Bununla yanaşı, 10 noyabr bəyanatında əks olunmuş və yekunlaşmamış bəzi məsələlər həll olunmamış qalır:**

1. Nizamlı və nizamsız bütün erməni silahlı birləşmələrin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış torpaqlarından çıxarılması;
2. Azərbaycanın qərb regionu və Naxçıvan (Zəngəzur dəhlizi) arasında dəhlizin açılması, yeni Laçın dəhlizinin açılması;
3. Laçın və digər yaşayış məskənlərinin Azərbaycanın nəzarətinə qaytarılması.



# Əli Əsədovdan Şərqi Zəngəzurla bağlı sərəncam

***Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti nəqliyyat vasitələri ilə təmin olunacaq.***

"Unikal" xəbər verir ki, bu, Baş nazir Əli Əsədovun imzaladığı "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 iyul tarixli 1756 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə" sərəncamında əksini tapıb.

Sərəncama əsasən, Maliyyə Nazirliyi Xidmətlə və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Xidmətin dövlət qeydiyyatına alındığı gündən on beş gün müddətində Xidmətin nəqliyyat vasitələri ilə təmin olunması və maddi-texniki təminatı ilə bağlı təkliflərini Nazirlər Kabinetinə təqdim etməlidir.

# NATO Qarabağdakı gərginlikdən narahatlığını bildirdi

***NATO Azərbaycan və Ermənistan qüvvələri arasında hərbi əməliyyatları dərhal dayandırmağa çağırır.***

"Unikal" xəbər verir ki, bunu NATO Baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya regionu üzrə köməkçisi Xavier Kolomina "Twitter"də bildirib.

"Biz insan tələfatından dərin təəssüf hissi keçiririk və hər iki tərəfi gərginliyi azaltmağa və danışıqlar masasına qayıtmağa çağırırıq. NATO Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılmasını dəstəkləyir", - o deyib.

# Putin və Ərdoğana bu layihələri müzakirə edəcək

***Rusiya prezidenti Vladimir Putin avqustun 5-də türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla enerji sahəsində birgə strateji layihələri müzakirə edəcək.***

"Unikal"ın məlumatına görə, bu barədə Kremlin mətbuat xidməti bildirib.

"İyulun 19-da prezidentlərin Tehranda ikitərəfli görüşü zamanı əldə olunan razılaşmalara uyğun olaraq Rusiya-Türkiyə çoxplanlı əməkdaşlığının, o cümlədən ticari-iqtisadi əlaqələrin gələcək inkişafı və enerji sahəsində birgə strateji layihələrin müzakirəsi planlaşdırılır", - məlumatda deyilir.

Qeyd edək ki, avqustun 5-də R.T.Ərdoğan Rusiyaya birgünlük səfər edəcək. Həmin gün Soçi şəhərində prezidentlərin görüşü keçiriləcək.

# "Ermənilər cavab zərbələri almağa hazır olsunlar"

## Tofiq Zülfüqarov: "Onlar açıq bəyan ediblər ki, 30 ildə davam etdirdikləri işğalçılıq siyasətini yeni şəraitdə davam etdirmək niyyətindədirlər"



***Azərbaycanın keçmiş xarici işlər naziri, politoloq Tofiq Zülfüqarov "Unikal"a müsahibə verib. O, son günlər erməni silahlı dəstələrinin Azərbaycan Ordusunun bölmələrinə qarşı terror-təxribat əməli törətməsinin səbəblərindən, Rusiya-Ukrayna müharibəsinin nə zaman başa çata biləcəyindən, ABŞ Konqresinin Nümayəndələr Palatasının sədri Nensi Pelosinin Tayvana səfərindən və s. məsələlərdən danışıb.***

***-Son vaxtlar Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun bölmələrini atəşə tutur və vəziyyəti gərginləşdirir. Onların bu addımı atmaqda məqsədi nədir?***

-Qeyd etdiyiniz gərginləşmənin ardıcıl şəkildə baş verdiyini görürük. Bu, böyük proseslərin bir hissəsidir. Burada söhbət Qərb-Rusiya qarşıdurmasından gedir ki, bunun qismən Cənubi Qafqaza keçməsi göz qabağındadır. Ermənistana edilən səfərlər, telefon danışıqları onu göstərir ki, hansısa proseslər gedir. Yəni, Rusiya zəiflədikcə, Qərbin bu ölkədə mövqeyinin güclənməsi Ermənistanın rəhbərliyi tərəfindən dəstəklənir. Bunun fonunda ermənilər öz təhlükəsizliklərini təmin etmək üçün keçid dövrü yaşamalıdırlar. Rusiyanın təhlükəsizlik zəmanəti aradan götürülsə, Qərb hansısa şəkildə öz mövcudluğunu Ermənistanda təmin etməlidir. Ermənilər üçün keçid dövrü çox təhlükəlidir. Onlar yaxşı başa düşürlər ki, indiki mərhələdə bu bölgədə Azərbaycan-Türkiyə birliyi əsasdır. Bundan ehtiyat edərək Rusiyanın təhlükəsizlik təminatını hansısa şəkildə Qərbin təmin etməsini istəyirlər. Çalışırlar ki, Qərb hansısa variantda burada yerləşsin. Buna nail olmaq üçün silsilə təxribatların baş verdiyini görürük. Məqsəd ondan ibarətdir ki, burada hansısa üçüncü qüvvələrin yerləşməsini təmin etsinlər.

***-Bu təxribatlar bir müddətdir davamlı olaraq baş verir. Avqustun 3-də erməni silahlı dəstələrinin üzvləri Ordumuzun bölmələrinə qarşı terror-təxribat əməli törədib və bunun nəticəsində əsgər Anar Kazımov şəhid olub. Buna cavab olaraq Azərbaycan Ordusunun bölmələri tərəfindən "Qisas" cavab əməliyyatı həyata keçirildi. Bundan sonra hansı addımların atılacağı gözlənilir?***

-Deməli olar ki, Ermənistan sülh prosesindən imtina edib. Onlar açıq bəyan ediblər ki, 30 ildə davam etdirdikləri işğalçılıq siyasətini yeni şəraitdə davam etdirmək niyyətindədirlər. Defakto olaraq Azərbaycana ərazi iddiaları siyasətini həyata keçirməkdədirlər. Bunu etməklə yanaşı həm də qorxurlar ki, Azərbaycanın cavab zərbələri sarsıdıcı olacaq. Əmin deyillər ki, Rusiya həmişəki kimi onların köməyinə gələcək. Qərb isə indi bölgədə yoxdur və bu vəziyyət onlara təhlükə yaradır. Təxribatlar isə bizim seçimimiz deyil. Ermənistan özü bu yolu tutub. Biz sadəcə onlara cavab vermək məcburiyyətindəyik. Ermənilər bu siyasəti seçiblərsə, o zaman cavab zərbələri almağa hazır olsunlar. Bu məsələdə mövqeyimiz və taktikamız bəllidir. Əvvəl deyirik, başa düşürlərsə, məsələlər öz həllini tapır. Bir müddətdir onlar silsilə təxribatlara əl atırlar. Onları bu yoldan çəkindirmək üçün Azərbaycan dediyi kimi istənilən vaxt zərbələr endirə bilər və bunu da etdi. Burada həmçinin, məntiqə uyğun olmayan bir vəziyyət yaranıb. Həmin bölgədə təhlükəsizliyi təmin etmək üçün Rusiya Federasiyası sülhməramlı kontingenti var. Heç bir sənəddə qeyd olunmayıb ki, onlarla yanaşı təhlükəsizliyi Ermənistanın hərbçiləri, o cümlədən bizim konstitusiyamıza zidd olan hansısa hərbi birləşmələr təmin edəcək. Bu baxımdan, həmin ərazidə təhlükəsizlik üçün sülhməramlılar var. Digər qüvvələr orada nə ilə məşğuldular? Bu o deməkdir ki, Ermənistan köhnə siyasətini davam etdirmək istəyir. Elə edirlər ki, sanki heç nə baş verməyib. Təbii ki, bu, qəbuledilməzdir. Azərbaycan ərazisində qanunlarımız işləməlidir. Ona görə də Azərbaycan Ordusu bu məsələdə hərbi əməliyyatlar deyil, antiterror əməliyyatları həyata keçirir.

***-Rusiya-Qərb qarşıdurmasının Cənubi Qafqaza nə kimi təsiri olacaq?***

-Rusiya-Qərb qarşıdurmasını nəzərə alsaq görəcəyik ki, Rusiya indi iqtisadi əlaqələr üçün cənub və şərqə üstünlük verir. Cənubdan söhbət etsək, onun üçün Azərbaycan, Türkiyə, İran istiqaməti çox aktual görünür. Belə ki, iqtisadi əlaqələrin əsas şərtlərindən biri olan dəmiryolu bağlantısı Zəngəzurdan keçir. Bu baxımdan, Ermənistan qərbyönlü siyasəti seçibsə, o zaman bu planlar Rusiya üçün təhlükə yaradır. Bəlkə də indiki mərhələdə Ermənistanın Qərbi seçməsi problem olmazdı. Amma yolların kontrolunun qərbyönlü Ermənistanda qalması Rusiyanı qane etməz. Hesab edirəm ki, indiki mərhələdə proseslərin mahiyyəti bundan ibarətdir. Ermənistana ardıcıl yüksək səviyyəli səfərlərin olduğunu, daim telefon zəngləri edildiyini görürük. Təxribatların harada olduğuna diqqət yetirsək, görəcəyik ki, həmin bu bölgədə baş verir. Qarşıda hansısa böyük hadisələrin olmasını gözləməliyik. Azərbaycan münaqişənin bu mərhələsinə hazırlıqlı vəziyyətdədir. Hazırda Azərbaycan-Türkiyə müttəfiqliyi ən yüksək səviyyədədir. Rusiyanın da Azərbaycan və Türkiyə ilə olan münasibətləri göz qabağındadır. Digər tərəfdən, Azərbaycanın Qərb üçün nə qədər vacib olduğu məlumdur. Avropanın enerji təminatında vacib sənədlər imzalanıb. Bunlar onu deməyə əsas verir ki, Azərbaycan müxtəlif istiqamətlərdə öz siyasətini lazımi səviyyədə qurub və gələcək hadisələrə hazırlıqlı vəziyyətdədir.

***-Siz də telefon danışıqları ilə bağlı məqamlara toxundunuz. Vəziyyətin gərginləşdiyi bu günlərdə Rusiyanın müdafiə naziri,ordu generalı Sergey Şoyqu Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənovla telefon danışığı apardı. Həmçinin, Rusiya Prezidenti Vladimir Putin və Ermənistan Baş naziri Nikol Paşinyan arasındakı telefon danışığı zamanı Qarabağ məsələsinə toxunulub. Necə düşünürsünüz, bu danışıqlarda başqa nələr müzakirə edilə bilər?***

-Rusiya yaxşı başa düşür ki, bu təxribatların səbəbkarı Ermənistandır. Ermənilərin məqsədi isə ondan ibarətdir ki, burada vəziyyəti gərginləşdirib Qərb ölkələrinin və ya beynəlxalq təşkilatların qüvvələrini sərhəd zonasına gətirsin. Bu, onlar üçün əlavə təhlükəsizlik təminatı yaradan bir məqsəd olacaq. Eyni zamanda, Ermənistan tərəfi yaxşı başa düşür ki, Rusiyanın zəifləməsi onların bu bölgədə Azərbaycan-Türkiyə tandeminə qarşı təkbaşına qalmasına gətirib çıxaracaq. Bu baxımdan, təxribatların əsas məqsədi üçüncü qüvvələrin bura cəlb edilməsidir. Rusiya da bunu başa düşür və telefon danışıqları baş verir.

***-Bizim regionumuzda baş verənlərlə yanaşı, dünyanın diqqətində olan əsas məsələlərdən biri də Rusiya-Ukrayna müharibəsidir. Artıq 160 gündən çoxdur ki, müharibə davam edir. Bu münaqişənin yaxın zamanlarda başa çatacağı gözlənilirmi?***

-Əgər rəqəmlərlə baxsaq, Rusiya Ukraynadan hərbi baxımdan güclüdür. Onun potensialı, hərbi texnikalarının sayı və s. çoxdur. Amma Qərbin Ukraynaya köməyi vəziyyəti dəyişməyə imkan verdi. Hansısa mərhələdə ya sənəd əsasında, ya da texniki bir atəşkəs əldə oluna bilər. İndiki mərhələdə isə təzə təmas xəttinin formalaşmasını görürük. Bunun harada təsbit olunacağı hələ də bəlli deyil. Çünki iki tərəfdən də aktual sayılan yeni nöqtələr mövcuddur. Xerson istiqaməti və s. bura aiddir. Qısa müddətdən sonra nisbi atəşkəsin qaçılmaz olduğunu istisna etmirəm. Amma indi hansısa siyasi razılaşmalar üçün əsas görmürəm. Belə ki, tərəflərin mövqeyi tam bir-birindən fərqlənir. Siyasi razılaşmalar mümkün deyilsə, deməli, texniki atəşkəs istisna olunmur. Hərbi əməliyyatların intensivliyi onu göstərir ki, artıq qüvvələrin imkanları bərabərləşib və indi aktiv hücumlar mümkün deyil.

***-Bu günlərdə ABŞ Konqresi Nümayəndələr Palatasının sədri Nensi Pelosi Tayvana səfər etdi. Bundan sonra Çin Xarici İşlər Nazirliyi N.Pelosinin səfərinə görə ABŞ-a xəbərdarlıq etdi. Bunun fonunda Çin Tayvan ətrafında hərbi təlimlər keçirir. Bu baş verənlər müharibəyə səbəb ola bilərmi?***

-Çin çox təmkinli bir siyasət həyata keçirdi. Çünki onun strateji baxışları aylarla, illərlə ölçülmür. Həmin səfər zamanı "Vaşinqton post" qəzetində Nensi Pelosinin çap olunan məqaləsi çox maraqlıdır. Onu diqqətlə oxusaq orada yazılıb ki, ABŞ Çin siyasətinə sadiqdir. Sadəcə olaraq 1979-cu ildə ABŞ-ın keçmiş prezidenti Cimmi Karter tərəfindən qəbul olunmuş qanun əsasında bu siyasəti həyata keçirirlər. Yəni, Tayvan rəsmən Çinin bir hissəsidir. Onların birləşməsi sülh şəraitində baş verməlidir. Güc tətbiq olunması ABŞ tərəfindən qəbul olunmaz. Onlar Tayvanın hərbi müttəfiqi olaraq qalırlar. Digər maraqlı məqam ondan ibarətdir ki, Çin bir ölkə sayılmaqla onun ərazisində iki sistemin olması mümkündür. Yəni, kontinental Çini və Tayvanı nəzərdə tutur. Bu məqalədə həmin prinsiplər təkrarlanır. Hesab edirəm ki, vacib məqalədir. Həmin məqalə yaranan gərginliyi qismən də olsa, aradan götürəcək. Əslində, gərginliyin səbəbkarı ABŞ prezidenti Co Bayden olub. Bir neçə həftə əvvəl Koreyada olarkən prinsiplərə zidd olan bəyanatlar vermişdi. Nensi Pelosinin isə məqaləni çap etdirməkdə məqsədi həmin gərginliyi aradan götürməkdir. Bunlarla yanaşı, orada gərginliyin davam edəcəyini gözləmirəm.

***Anar Kəlbiyev***

# Xanlar Fətiyevə 5 milyon manatlıq şok...

## Deputata məxsus zavodun mənfəəti niyə 3 dəfədən çox azalıb?

***"Gəncə Avtomobil Zavodu" (GAZ) İstehsalat Birliyi 2021-ci ili 2 milyon 22 min manat xalis mənfəət ilə başa vurub. GAZ 2020-ci ili 7 milyon 396 min manat xalis mənfəət ilə bağlamışdı. Beləliklə,"Gəncə Avtomobil Zavodu"nun 2021-ci ildə xalis mənfəəti 2020-ci illə müqayisədə 3,7 dəfə azalıb.***

Belə ki, "Gəncə Avtomobil Zavodu"nun satışdan gəlirləri 2020-ci ildə 98 milyon 935 min manat ikən, 2021-ci ildə 84 milyon 867 min manata düşüb (14 milyon 68 min manat və ya 14,2% azalıb).

Ötən il "Gəncə Avtomobil Zavodu"nun cəmi gəlirləri 84 milyon 867 min manat, cəmi xərcləri 82 milyon 845 min manat təşkil edib.

31 dekabr 2021-ci il tarixində GAZ-ın cəmi aktivləri 97 milyon 722 min manat olub ki, bu da illik müqayisədə 20,3 % çoxdur.



Hesabat dövründə şirkətin öhdəlikləri 29,3% artaraq 66 milyon 97 min manata, balans kapitalı isə 5,1 % artaraq 31 milyon 625 min manata çatıb.

Xatırladaq ki, GAZ-ın əsası 1986-cı ildə qoyulub və 30 min ədəd ortatonnajlı avtomobillərin istehsalı üçün hesablanıb. Müəssisənin tikintisi layihəyə görə 1989-cü ildə başa çatmalı olsa da, Sovet İttifaqının dağılması nəticəsində zavodun tikintisi yarımcıq qalıb.

Yalnız 2004-cü ilin dekabrında GAZ işə düşüb və müəssisədə ilk avtomobil yığılıb.

Zavodun nizamnamə kapitalı 3 milyon 573 min manatdır.

Onu da qeyd edək ki, yerli mətbuat GAZ-ın keçmiş deputat Xanlar Fətiyevə məxsus olduğunu yazır. Fətiyev bu zavodun Müşahidə Şurasının sədridir. O, zavodun işə salındığı tarixdən - 2004-cü ildən bu günə kimi həmin vəzifədə işləyir.

1972-ci ildə Bakı şəhərində doğulan Fətiyev 90-cı illərin ilk yarısından biznes fəaliyyətinə başlayıb. 1990-1991-ci illərdə "Betonçu" kooperativində iqtisadiyyat və istehsalat üzrə mühəndis, 1992-1994-cü illərdə isə həmin kooperativdə sədr vəzifəsində işləyib. 1994-1997-ci illərdə "Elruz" kiçik müəssisəsində sədr, 1997-2003-cü illərdə "Avestas" firmasının baş direktoru, 2003-2004-cü illərdə "Aznur" MMC-nin baş direktoru vəzifələrində çalışıb. 39 saylı Kəpəz birinci (Gəncə) Seçki Dairəsindən Milli Məclisə deputat seçilib.

Son illərdə Xanlar Fətiyev xüsusilə ölkədən kənardakı biznesini xeyli genişləndirib. Onun Gürcüstandan tutmuş Almaniyaya, Maltadan tutmuş İspaniyaya qədər bir çox ölkədə şirkətlərinin olduğu bildirilir. Məsələn, Gəncə Avtomobil Zavodunun rəhbəri Almaniyada lüks avtomobillərin icarəsi ilə məşğul olan "Aznur GMBH" adlı şirkət yaradıb; şirkət 2010-cu il iyunun 15-də Charlottenburg (Berlin) ədliyyəsində nizamnamə kapitalı 25 min avro olmaqla qeydiyyatdan keçib. Müxtəlif vaxtlarda Sona Osmanova, Murad Süleymanov, Fəxri Həsənov tərəfindən idarə olunan şirkətə son olaraq Elvira Şahbazovanın rəhbərlik etdiyi vurğulanır, onun həm də bir müddət Berlində Fətiyevə məxsus, 2006-cı ilin fevralından fəaliyyət göstərən, dövriyyəsi 1 milyon avrodan yuxarı olan "Brasil Gastro GMBH" adlı şirkəti və eyni adlı restoranı idarə etdiyi deyilirdi. Yeri gəlmişkən, Fətiyev sonradan adıçəkilən restoranı tanıdığını və orada olduğunu etiraf etsə də buranın ona məxsus olduğunu təkzib etmişdi.

Xanlar müəllimin Almaniyadakı daha bir şirkəti 2010-cu ilin oktyabr ayında Ştuttqart şəhərində "Aznur Stutgart GMBH" adı və 25 min avro nizamnamə kapitalı ilə qeydiyyatdan keçmişdi. 2016-cı ilin aprelin 20-də şirkət yenidən qeydiyyatdan keçirilmiş və "Aznur Travel GMBH" adı ilə Berlində Fətiyevin avtomobillərinin kirayəsi ilə məşğul olan şirkətin ("Aznur GMBH") ofisində fəaliyyətə başlamışdı.

İspaniyanın Ciudad aeroportunda da "Aznur"un kirayə avtomobilləri xidmət göstərir. Bundan başqa, Belarusda Fətiyevin sürücüsüz və ya sürücülü olmaqla avtomobil icarəsi ilə məşğul olan iki şirkəti var. Bundan başqa, o, adıçəkilən ölkədə taksi biznesinə də sahibdir. Moskva və Kiyevdə də şirkətin avtomobillərin icarəsi xidməti göstərən filialların olduğu deyilir.

Lakin Fətiyev ölkə xaricində təkcə avtomobil icarəsi, taksi xidməti və turizm biznesi ilə məşğul deyil. Məsələn, onun Tiflisdə eyni ad altında 4 supermarketdən ibarət marketlər şəbəkəsi qurduğu barədə də məlumatlar var. Həmin marketlərin Gürcüstanda qeydiyyata alınan "AznurGeorgia" şirkəti tərəfindən idarə olunduğu bildirilir.

Yuxarıda yazdıqlarımız Xanlar müəllimin xaricdəki biznesi ilə bağlı məlumatların heç də hamısı deyil. Lakin elə bu məlumatlar da son illərdə onun ölkədən kənardakı biznesinin xeyli gücləndiyini, genişləndiyini söyləməyə əsas verir. Gəncə Avtomobil Zavodunun mənfəətindəki kəskin azalma, hətta onun bəzi illəri zərərlə başa vurması isə həmin məlumatları xüsusilə maraqlı edir. Çünki bəzilərinin fikrincə, Fətiyevin xaricdəki biznesinə daha çox vaxt və diqqət ayırması GAZ-da işlərin daha yaxşı getməsini əngəlləyir...

***Sənan Mirzə***



# Dövlət qulluğu imtahanına sayğısız yanaşanlara pul cəzası

***Qanunvericiliyin tələblərinə əsasən, dövlət qulluğuna qəbul üçün test imtahanından keçdiyini təsdiq edən sertifikatı olan şəxs həmin sertifikatın qüvvədə olma müddətinin hər ili ərzində beş müsahibədə iştirak etmək üçün ödənişsiz müraciət edə bilər.***

Beşdən artıq müsahibədə iştirak ödənişlidir və müsahibədə iştirak etmək üçün ödənişin məbləğini Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası müəyyən edir.

Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının 2022-ci il 26 iyul tarixli 5 nömrəli qərarına əsasən "Dövlət qulluğu sertifikatı"nın qüvvədə olma müddətinin hər ili ərzində beşdən artıq müsahibədə iştirak üçün ödənişin məbləği dövlət qulluğu vəzifələrinin növlərinə müvafiq olaraq test imtahanı tariflərinin 50% miqdarında müəyyən edilib.

Modern.az xəbər verir ki, bununla bağlı danışan Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz ödənişlərin dövlət qulluğuna sayğısızlığın qarşısını almağa xidmət etdiyini bildirib: "Xeyli müddətdir ki, dövlət qulluğuna qəbulla bağlı DİM-in müsahibə komissiyasında iştirak edirəm. İndiyədək proses elə qurulmuşdu ki, iddiaçı istədiyi sayda dövlət vəzifəsinə iddia edə bilər, istədiyi zaman imtahana qatılmaya bilərdi. Bu səbəbdən də baş tutmayan müsahibələrin sayı çox olurdu. Elə namizəd olurdu ki, 40-50 vəzifəni tutmaq üçün müraciət edirdi və kefi hansında istəsə, onda iştirak edirdi.

Rəsmi məlumata görə, indiyədək təyin olunan müsahibələrdən 63%-nin keçirilməsi məhz namizədlərin müsahibələrdə iştirak etməməsi və ya imtina etməsi səbəbindən mümkün olmayıb.

Hazırda isə qanunvericiliklə bu məsələlər yenidən tənzimlənib. Artıq beşdən artıq müsahibədə iştirak ödənişlidir və müsahibədə iştirak etmək üçün ödənişin məbləğini Tarif Şurası müəyyən edib. İddia edilən dövlət vəzifəsinin daxil olduğu qruplardan asılı olaraq bu məbləğ 40-60 manat arasında müəyyən olunub.

Eyni zamanda iştirakla bağlı öncədən məlumat verilmədikdə ödəniş geri qaytarılmır və üzürsüz yayınma müsahibə sayında nəzərə alınmayacaq. Yəni artıq onun pulsuz iştirak hüququ olan müsahibələrin sayı azalmış olacaq. Beləliklə, artıq elə situasiya formalaşıb ki, müsabiqənin müsahibə mərhələsində iştirak üçün müraciət edən namizəd gərək ödənişsiz iştirak hüquqlarından səmərəli istifadə etsin. Həmçinin qabaqcadan ciddi hazırlıq olmalıdır ki, şansı azalmasın".

Osman Gündüzün fikrincə, hələlik bununla bağlı məlumat yetərli deyil: "Elə ötən gün keçirilən müsahibədə bir daha bunun şahidi olduq. İddiaçıların bəzilərinin yenə də açıq-aşkar heç bir hazırlıq olmadan, sanki tanışlıq və ya özünü sınamaq məqsədilə müsahibəyə qatıldığı hiss olunurdu. Odur ki, müraciət edənlər yetərincə uğur qazana bilmədi və pulsuz iştirak hüququ olan müsahibə sayı azalmış oldu. Bu gün DİM yenidən bu haqda açıqlama verib və namizədləri yeni qaydalarla tanış olmağa və müsahibələrə diqqətli yanaşmağa çağırıb".

# Xanımları təhqir edən şəxs prokurorluğa çağırıldı




***Müxtəlif dini etiqadların qanun qarşısında bərabərliyi, dostluq və əmin-amanlıq şəraitində ünsiyyət qurması Azərbaycan cəmiyyətinin multikulturalizm və tolerantlıq baxımından dünyaya göstərdiyi bir nümunədir. Təəsüf ki, bəzi hallarda mediada və sosial şəbəkə səhifələrində milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyinin salınmasına, bu zəmində fərdlərin dünya görüşünə görə ləyaqətinin alçaldılmasına, bununla da Konstitusiyada təsbit edilmiş vicdan azadlığı, milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının qəsd etmə hallarına rast gəlinir.***

”Unikal” xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Baş Prokurorluğu məlumat yayıb. Məlumatda deyilir:

”Baş Prokurorluq tərəfindən aparılan monitorinq nəticəsində müəyyən edilib ki, Abşeron rayon sakini Təyyar Hüseynli internet informasiya ehtiyatında və informasiya-telekommunikasiya şəbəkəsində müsahibə zamanı fərqli dünya görüşünə və əqidəyə malik olan şəxslər barəsində kəskin və Azərbaycan cəmiyyətində mövcud dəyərlər baxımından təhqiramiz ifadədələr işlədib, bunun davamı olaraq baş vermiş müzakirələrdə Mübariz Sadıqlı, Nicat Dadaşov və İrşad Muradov və digər şəxslər tərəfindən təhqir və ya böhtan xarakteri daşıyan, habelə şəxsi həyatın toxunulmazlığını pozan məlumatlar yayılıb.

Bununla da “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi” haqqında Qanunun 13-2.2.3 və 13-2.3.9-cü maddələrinin tələbləri pozulub.

Qeyd olunanları nəzərə alaraq, adı çəkilən şəxslərlə aparılmış söhbət zamanı əməllərinin ictimai təhlükəli nəticəsini vaxtında dərk etmədiklərini, mövcud şəraitdə bu cür yazıların yanlış olduğunu dərk etdiyini, gələcəkdə bu cür pozuntulara yol verməyəcəklərini nəzərə alaraq onların barəsində “Prokurorluq haqqında” Qanunun 22-ci maddəsinə əsasən prokuror təsir tədbiri aktı olan xəbərdarlığın elan edilməsi ilə kifayətlənib.

Bununla yanaşı, Baş Prokurorluq tərəfindən media nümayəndələri və sosial şəbəkə istifadəçilərinə müraciət edilərək gələcəkdə cəmiyyətdə təşvişə səbəb olan bu qəbildən məlumatların yayılmaması tələb edilir, əks halda müvafiq qanuni tədbirlərin görüləcəyi bildirilir”.

Qeyd edək ki, Təyyar Hüseynli çimərliyə gedən xanımları təhqir edərək, müsəlman kişinin yanındakı qadın geyiminə diqqət etməli olduğunu deyib.

# Xəzər dənizində monitorinqlər başa çatdı



***Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Zoologiya və Fiziologiya İnstitutlarının mütəxəssislərindən ibarət ekspedisiya qrupu tərəfindən Xəzər dənizində Əlif Hacıyevin adını daşıyan elmi-tədqiqat gəmisi ilə keçirilən kompleks ekoloji monitorinqlər başa çatıb.***

Ekspedisiya qrupunun rəhbəri, Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsinin rəisi Nazim Mahmudov ”Unikal”a bildirib ki, monitorinqlər zamanı nərəcinsli balıqların, Xəzər suitilərinin və digər su bioloji resurslarının ehtiyatları öyrənilib, quşların miqrasiyasının vizual müşahidəsi aparılıb.

İdarə rəisi onu da qeyd edib ki, Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən 9 məntəqə üzrə 117 su, zooplankton, bentos və dib çöküntüsü nümunələri götürülüb, dəniz üzərində atmosfer havasının çirklənmə vəziyyəti öyrənilib, hidrometeoroloji ölçmələr aparılıb və biomüxtəliflik tədqiq edilib”.

# Misir Mərdanovun yeni sevdası...

## Sabiq nazirin könlündən təzə vəzifə keçir?

***Prezident “Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Fərman imzaladı və Təhsil Nazirliyinin adı dəyişdirilərək Elm və Təhsil Nazirliyi adlandırıldı. Bundan başqa, fərmana əsasən, elm sahəsində dövlət siyasətinin və tənzimlənmənin həyata keçirilməsi, elmi müəssisə və təşkilatların elmi fəaliyyətinin əlaqələndirilməsi və istiqamətləndirilməsi ilə bağlı səlahiyyətlər Elm və Təhsil Nazirliyinə həvalə edildi.***

Sözügedən qərarla bağlı ilk reaksiyalardan biri isə sabiq təhsil naziri, fizika-riyaziyyat elmləri doktoru, professor Misir Mərdanovdan gəldi. O, yerli mətbuata açıqlamasında yeni nazirliyin alimlərə elm və tədqiqatlarla məşğul olmaq üçün lazımi şərait yaratmalı olduğunu dedi. Sitat: “Fərmanın necə icra olunacağını da proqnozlaşdırmaq çətindir. Arzum budur ki, millətimiz, dövlətimiz üçün xeyirli olsun. İstəyərdim ki, alimə elm və tədqiqatlarla məşğul olmaq üçün şərait yaradılsın. Bu olsa, hər şey etmək mümkündür. Alimlərə qiymət verilməlidir ki, elm və tədqiqat işlərini davam etdirsinlər”.



Mərdanovun açıqlamasındakı ən diqqətçəkən məqam isə bu idi: ”Nazirliyin tərkibində iki agentlik yaradılıb. Biri elmlə bağlı, digəri isə məktəbəqədər və orta təhsillə bağlıdır. Hər halda elmlə bağlı agentliyə elmdən başı çıxan, müəyyən səviyyəyə çatmış şəxsin rəhbərlik etməsi daha məqsədəuyğundur”.

Misir müəllim ”elmlə bağlı agentlik” deyərkən Elm və Ali Təhsil üzrə Dövlət Agentliyini nəzərdə tutur. Onun ”elmdən başı çıxan, müəyyən səviyyəyə çatmış şəxs” dedikdə konkret olaraq kimi nəzərdə tutduğu isə qaranlıqdır. Bir çoxlarının fikrincə, sabiq nazir adıçəkilən Dövlət Agentliyinin rəhbəri postuna sətiraltı olaraq özünün namizədliyini təklif edir. Belə düşünənləri haqsız saymaq olmaz. Axı Mərdanov Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru, Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, nəhayət, professordur! Yəni tərcümeyi-halındakı bu məqamları nəzərə alsaq Misir müəllimin ”elmdən başı çıxmasına”, yaxud ”müəyyən səviyyəyə çatmasına” heç bir şübhə yoxdur. Amma və lakin ortada fərqli bir gerçəklik də var. Həmin gerçəklik ondan ibarətdir ki, sabiq nazirin idarəçilik bacarıqları barədə cəmiyyətdə fikir elə də yüksək deyil. Onun Təhsil Nazirliyinə rəhbərlik etdiyi dövr ictimai rəydə müsbət təəssüratlarla xatırlanmır, bir az da dəqiqləşdirsək, təhsil sahəsində rüşvət və korrupsiyanın çiçəklənmə illəri kimi xarakterizə edilir. Mərdanovun nazir olduğu illərdə sözügedən sahədə yeyinti, mənimsəmə az qala, adi hala çevrilmişdi. Hətta bu səbəbdən o, vəzifəsini itirərkən çoxları Misir müəllimin hətta hüquqi məsuliyyətə cəlb ediləcəyini düşünürdülər. Üstəlik, ölkə təhsilinin səviyyəsi eks-nazirin zamanında xeyli aşağı düşmüşdü. Bunu abituriyentlərin ilbəil zəifləyən göstəriciləri əyani şəkildə təsdiqləyirdi. Dərsliklərin formaca və məzmunca keyfiyyəti ilə bağlı qalmaqallar isə o qədər artmışdı ki, artıq bu problem məhkəmə çəkişmələrinin predmetinə çevrilmişdi.

Bir sözlə, Mərdanovun təhsil naziri olduğu dövrdə Azərbaycan təhsilinin durumu ilə bağlı müsbət nəsə tapmaq, demək olar, mümkünsüz iş idi. Hələ biz onun Riyaziyyat və Mexanika İnstitutuna rəhbərliyindən danışmırıq. Misir müəllim bu instituta direktor təyin edildikdən sonra hansı elmi nailiyyətlərə imza atılıb? Bu sualın cavabı açıqdır. Belədə sual yaranır: doğrudanmı, məsələ yalnız ”elmdən başı çıxmaqda”, yaxud da ”müəyyən səviyyəyə çatmaqda”dırmı? Yalnız bunlar yetərli olsaydı, o zaman Mərdanovun rəhbərlik etdiyi Riyaziyyat və Mexanika İnstitutu yəqin ki, çoxdan səs-küylü elmi yeniliklərlə ad çıxarardı, elə deyilmi?!

Unutmamaq lazımdır ki, bu gün bir elm ocağına layiqli rəhbərlik üçün adının əvvəlinə elmlər doktoru, professor, hətta 1996-cı ildən Azərbaycan Riyaziyyat Cəmiyyətinin vitse-prezidenti, Türk dünyası Riyaziyyat Cəmiyyətinin prezidenti, Türk dünyası Riyaziyyat Cəmiyyətinin fəxri prezidenti, Pedaqoji təhsil üzrə Beynəlxalq Elmlər Akademiyasının akademiki, eyni zamanda Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi və Rusiya Təhsil Akademiyasının xarici üzvü kimi çoxsaylı titulların yazılması kifayət deyil. Bunun üçün yeni dövrün çağırışlarına uyğun, şəffaf, modern idarəçilik qabiliyyəti də lazımdır. Həmin qabiliyyətlərin Mərdanovda nə qədər cəm olub-olmadığını söyləməyə isə çətinlik çəkirik. Ən azından ona görə ki, onun 10 ilə yaxındır - 2013-cü ildən bəridir direktoru olduğu institutun adını biz hər hansı elmi uğurla yanaşı eşitməmişik...

***Toğrul Əliyev***

# Vidadi İsayev postu ilə vidalaşır

## Ən stajlı icra başçılarından biri yola salınır

***Azərbaycanın "uzunömürlü" icra başçılarından biri olan Vidadi İsayevin kreslosuna təhlükə yaranıb. Bərdə Rayon İcra Hakimiyyətinin başçısı İsayevin yaxın vaxtlarda vəzifəsindən kənarlaşdırılacağı iddia edilir.***

Xatırladaq ki, o, artıq 17 ildir ki, icra başçısıdır. Bu müddət ərzində 2 rayona - Tərtər (2005-2011) və Bərdəyə (2011-ci ildən indiyə qədər) rəhbərlik edən İsayev yazılı və elektron mediada, eləcə də sosial şəbəkələrdə barəsində ən çox şikayətə rast gəlinən rayon rəhbərlərindəndir.

İsayevin vəzifəsindən kənarlaşdırılmasında əsas faktoru son illərdə Hesablama Palatasının Bərdə rayonunda apardığı yoxlamalar zamanı çoxsaylı nöqsanların aşkarlanması təşkil edir. Belə ki, hələ 2019-cu ildə Palata həyata keçirdiyi nəzarət tədbirləri nəticəsində nöqsan aşkar olunan icra hakimiyyətlərini və onların yol verdikləri nöqsanların mahiyyətini açıqlamışdı. Qurumun hesabatına əsasən, bunlar Gədəbəy, Bərdə, Balakən və Ağstafa rayon icra hakimiyyətləri idi. Məlum olmuşdu ki, Bərdə RİH büdcə qanunvericiliyini altı dəfə pozub.

Əsaslı qoyuluşlar üzrə Bərdədə dörd nöqsan, dövlət satınalmaları ilə bağlı isə altı nöqsan qeydə alınmışdı.

Bundan başqa, Bərdə rayon İcra Hakimiyyətində vergi və gömrük qanunvericiliyinin pozulması üzrə iki, mühasibat uçotu və hesabatlılıqla bağlı altı nöqsan aşkarlanıb.

Maraqlıdır ki, həmin hesabatda adları çəkilən rayonlardan ikisinin rəhbəriyi sonradan dəyişdirilib. Məsələn, 2021-ci ildə İbrahim Mustafayev 2018-ci ildən bəri tutduğu Gədəbəy Rayon İcra Hakimiyyətinin rəhbəri postundan azad edildi. Yaxud Ağstafanın icra başçısı Məhərrəm Quliyev də 2019-cu ildə postundan kənarlaşdırılıb. Bununla belə, Bərdə ilə yanaşı Tərtər və Balakən rayonlarının rəhbərləri öz postlarında qalmağı bacardılar. Lakin onların da adı mediada vəzifələrindən azad edilməsi yüksək ehtimal kimi qiymətləndirilən rayon rəhbərləri olaraq hallanır.

Bundan başqa, ötən illərdə Bərdə rayonundakı müxtəlif qurumlarda aparılan yoxlamalarda da mütəmadi nöqsanlar aşkarlanıb. Məsələn, Bərdə Rayon Mərkəzi Xəstəxanasına ayrılan vəsaitlərin icrasının vəziyyəti ilə bağlı həyata keçirilmiş auditin nəticələri üzrə Hesabatdan (əhatə dövrü 2017-2018-ci illər) məlum olub ki: əmək haqlarının hesablanması və ödənilməsi zamanı bir sıra normativ hüquqi sənədlərin tələbləri gözlənilməyib, tarif dərəcələrinin düzgün müəyyənləşdirilməməsi nəticəsində artıq əmək haqqı ödənilib, normadan artıq ərzaq məhsulları silinib, yerinə yetirilməmiş əsaslı təmir işlərinə görə vəsait ödənilib, ehtimal olunan qiymətlərin müəyyən edilməməsi səbəbindən mallara (işlərə və xidmətlərə) görə artıq vəsait ödənilib, satınalma keçirilmədən, təsdiqedici sənəd olmadan vəsait xərc edilib, səhiyyə müəssisələrinin tələbatından artıq mal-materillar alınaraq uzun müddət istifadəsiz saxlanılıb, 2017-2018-ci illərdə əsas vəsaitlərin silinməsi zamanı metal qırıntısı toplanıb təhvil verilməyib, nəqliyyat vasitələrinə artıq amortizasiya hesablanıb, Maliyyə Nazirliyinin 25 dekabr 2018-ci il tarixli qərarı ilə təsdiq edilmiş "İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması qaydaları"na bir sıra hallarda əməl edilməyib. Sonda isə Hesablama Palatası dövlət satınalmalarını tənzimləyən qanunvericiliyin tələbi pozularaq satınalma keçirilmədən vəsait xərc edilməsinə görə, eləcə də təyinatdankənar xərcə yol verildiyinə görə qanunvericiliyə uyğun olaraq tədbir görülməsi məqsədi ilə müvafiq materialların Baş Prokurorluğa göndərilməsi qərara alınıb.

Mətbuatda, sosial şəbəkələrdə Bərdə Rayon İcra Hakimiyyətinin fəaliyyətindən narazılıqların isə sayı-hesabı yoxdur. İnternet üzərindən kiçik bir axtarış aparmaq kifayətdir ki, V.İsayev və komandasının fəaliyyəti ilə bağlı çoxsaylı şikayətlərlə qarşılaşasan. Bu şikayətlərdə rayon rəhbərliyinin süründürməçiliyə yol verdiyi, sahibkarları incitdiyi, dövlət büdcəsindən rayona ayrılan vəsaitlərin təyinatı üzrə xərclənmədiyi və s. barədə iddialara, faktlara rast gəlinir. Məsələn, iki il öncə mətbuatda Bərdə rayon icra hakimiyyətinin başçısı Vidadi İsayevin rayon sakininə məxsus torpaq sahəsini ələ keçirdiyinə dair iddialar yer alıb. Rayon sakini Elşən Mənsimli "Qafqazinfo"ya müraciət edərək bildirib ki, rayonun Gərənə kəndində yerləşən və atası Nəbi Abdullayevə məxsus "Kəpəz" kooperativinin mülkiyyətində olan 2 hektar torpaq və onun üzərində yerləşən kərpic zavodu, çörək sexi, anbar, 225 kvadratmetr mağaza, hasar və darvazanı uçurub, söküntü materiallarını da aparıblar. " Mən maraqlandım və məlum oldu ki, rayonun icra başçısı Vidadi İsayev 2013-cü ildə bizim məlumatımız olmadan saxta yolla torpağı öz yaxın qohumu Eldarın adına özəlləşdirib. Mən onun qəbulunda oldum, dedi ki, "düz eləmişəm, özəlləşdirmişəm" - deyə şikayətçi bildirib.



O da maraqlıdır ki, V.İsayev haqqında səsləndirilən ittihamlarla bağlı münasibət bildirməyə lüzum görməyən icra başçılarındandır. Bərdə Rayon İcra Hakimiyyətindən nadir hallarda mediadakı iddialara, tənqidlərə, şikayətlərə reaksiya verilir, bu isə deyilənlərdə və yazılanlarda həqiqət payının yüksək olduğuna dair ehtimalları qüvvətləndirir. O ki, qaldı İsayevin vəzifəsindən azad olunacağı barədə məlumatlara, bunun nə qədər doğru olub-olmadığını zaman göstərəcək.

Yeri gəlmişkən, 2020-ci ildə də adıçəkilən icra başçısının işdən kənarlaşdırıldığı, hətta bu barədə qərarın yaxın saatlarda açıqlanacağı ilə bağlı ölkənin bir sıra tanınmış media orqanları xəbər yaymışdılar, lakin həmin xəbər təsdiqini tapmamışdı.

*Toğrul Əliyev*

# Peskovdan Qarabağdakı vəziyyətlə bağlı açıqlama



***Kremldə Qarabağdakı gərginlikdən dolayı narahatdır və tərəfləri sakitliyə və üçtərəfli razılaşmaların icrasına çağırır.***

"Unikal" xəbər verir ki, bu barədə Kremlin mətbuat katibi Dmitri Peskov jurnalistlərə açıqlamasında bildirib.

O, sabah Soçidə keçiriləcək Putin-Ərdoğan görüşündə bu məsələnin müzakirə olunacağını istisna etməyib.

Peskov Paşinyanın "bölgədəki Rusiya sülhməramlı kontingentinin fəaliyyətinin müəyyən suallar doğurduğunu" dair fikrinə də münasibət bildirib.

"Ermənistanla müxtəlif səviyyələrdə mövcud olan sıx əlaqələr İrəvanın Qarabağdakı Rusiya sülhməramlılarının işi ilə bağlı suallarını aydınlaşdırmağa yardım edir", - Peskov əlavə edib.

# Hərbi qulluqçularımız beynəlxalq təlimdə iştirak edirlər



***Azərbaycan Ordusunun Hərbi Dəniz Qüvvələrinin (HDQ) nümayəndələri Amerika Birləşmiş Ştatları ilə "Avrasiya Tərəfdaşlığı" proqramı çərçivəsində 01-05 avqust 2022-ci il tarixlərində Rumıniyanın Konstansa şəhərində keçirilən "Minalara qarşı tədbir və dalğıc hazırlığı təlimi"ndə iştirak edirlər.***

Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib. Məlumata görə, hər il keçirilən bu təlimin əsas məqsədi minalara qarşı mübarizə üsulları, dənizdə təhlükəsizlik əməliyyatları və infrastrukturun mühafizəsi mövzularında tərəfdaşlarla müzakirə və təcrübə mübadiləsi aparmaq, eləcə də peşəkar münasibətlərin qurulmasından ibarətdir.

# Döyüş təyyarələri və helikopterlər səmaya qalxdı

***Cari ilin tədris dövrünün hazırlıq planına uyğun olaraq Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) döyüş təyyarələri və helikopterləri ilə təlim-məşq uçuşları keçirilir.***

Müdafiə Nazirliyindən verilən məlumata görə, hərbi pilotların döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədi ilə keçirilən məşqlərdə aviasiya vasitələrinin uçuşları müəyyən edilmiş marşrutlar üzrə yerinə yetirilir.

Təlimdə havaya qalxma və yerə enmə, kiçik və orta hündürlüklərdə çətin pilotaj manevrləri, şərti düşmənə məxsus yerüstü hədəflərin koordinatlarının təyin edilməsi, eləcə də hava kəşfiyyatının aparılması üzrə tapşırıqlar pilotlar tərəfindən müvəffəqiyyətlə icra olunur.

# Güclü külək əsəcək, yağış yağacaq

***Bakıda və Abşeron yarımadasında avqustun 6-dan 9-u günüzədək şimal-qərb küləyinin 15-18 m/s, 6-07-də yarımadanın bəzi yerlərində arabir 20 m/s olacaq.***

Milli Hidrometeorologiya Xidmətindən "Unikal"a verilən məlumata görə, avqustun 6-8-də əsasən, gecə və səhər saatlarında bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Azərbaycanın rayonlarında avqustun 5-i axşamdan 9-u gündüzədək bəzi yerlərdə şimşək çaxacağı, fasilələrlə yağış yağacağı gözlənilir. Qərb küləyi 6-8-də bəzi yerlərdə arabir 18-23 m/s olacaq. Çaylarda sululuğun artacağı ehtimalı var.

# DYP "Neftçi"-"Rapid" oyunu ilə bağlı azarkeşlərə müraciət etdi



***Bakı Şəhər Dövlət Yol Polisi İdarəsi (DYP) "Neftçi" - "Rapid" oyunu ilə bağlı vətəndaşlara müraciət edib.***

İdarənin baş inspektoru polis mayoru Araz Əsgərli "Unikal"a bildirib ki, azarkeşlər oyun keçirilən əraziyə gələrkən əsasən ictimai nəqliyyata üstünlük versinlər:

"Bu gün UEFA Konfrans Liqasının III təsnifat mərhələsində ilk oyununda Azərbaycanın "Neftçi" klubu ilə Avstriya "Rapid"i ilə Bakıda, Nizami rayonu ərazisində yerləşən "Bakcell Arena" stadionunda, saat 21:00-da qarşılaşacaq. Əvvəlcədən doğma komandamız "Neftçi" klubuna uğurlar arzulayırıq.

Bildiyiniz kimi, "Bakcell Arena" stadionu ictimai nəqliyyat üçün əlverişlidir. Belə k, ərazidə metronun "Xalqlar dostluğu" stansiyasının olması avtobusların hərəkəti üçün tam şəraitin yaradılması bütün nəqliyyat ehtiyaclarını ödəyir. Komandamızının oyununa baxmağa gələn paytaxt sakinlərindən, azarkeşlərindən xahiş edirik ki, həmin ərazidə əsasən ictimai nəqliyyatdan istifadə etsinlər. Nəzərə alaq ki, yollardakı hər hansı bir hərəkət sıxlığının yaranması həmin ərazidən istifadə edən vətəndaşlara maneçilik törədə bilər. Bu isə zərurət yarandığı təqdirdə "Bakcell Arena" stadionuna paralel və kəsişən küçələrdə hərəkət istiqamətlərinin dəyişdirilməsinə və müvəqqəti bağlanmasına zərurət yarada bilər".

"Bir daha ictimai nəqliyyata üstünlük verməyi və oyunun keçirildiyi əraziyə 1 saat əvvəldən gəlməyi tövsiyə edirik", - DYP rəsmisi vurğulayıb.

# Kamran Əliyev Oğuzda qəbul keçirəcək

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Kamran Əliyev cari il avqustun 9-da saat 10:00-da Oğuz rayon prokurorluğunun inzibati binasında Oğuz, Şəki və Qəbələ rayon sakinlərinin qəbulunu keçirəcək.***

Bu barədə "Unikal"a Baş Prokurorluqdan məlumat verilib. Məlumata görə, vətəndaşların qəbulla bağlı qeydiyyatı və Oğuz rayonuna gəlmələrinin təşkili müvafiq rayon prokurorları tərəfindən həyata keçiriləcək.

Vətəndaşlar yaşadıqları ərazi üzrə rayon prokurorluqlarına yazılı və ya şifahi müraciət etməklə yanaşı, Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin (012) 361-14-07 nömrəli telefonu və contact@prosecutor.gov.az elektron poçt ünvanı, eləcə də prokurorluğun sosial şəbəkələrdəki səhifələri (instagram, facebook, telegram, twitter) vasitəsilə də qəbula yazıla bilərlər.

# Lisey və gimnaziyalara sənəd qəbulu başladı

***Dünən saat 11:00-dan etibarən mərkəzləşdirilmiş qaydada qəbul prosesi həyata keçirilən lisey və gimnaziyalara sənəd qəbulu başlayıb.***

Bu barədə "Unikal"a Təhsil İnstitutundan xəbər verilib. Bildirilib ki, bu mərhələdə lisey seçimi edib qəbul olunan və qəbul olunduğu liseyi təsdiqləyən şagirdlərin sorğusu avtomatik olaraq yaradılacaq.

Qeyd edək ki, sənəd qəbulu 17 avqusta qədər davam edəcək. Valideynlər şəxsi kabinetlərində sorğular bölməsinə daxil olaraq prosesin ardıcıllığını izləyə bilərlər. 4-17 avqust tarixlərində şagirdlərin ötən tədris ilində təhsil aldıqları məktəbdən şəxsi işləri təhvil alınaraq qəbul olduqları ümumtəhsil müəssisəsinə təqdim edilməlidir. Əks halda, imtahan nəticələri ləğv ediləcək və 2-ci mərhələdə iştirakına icazə verilməyəcək.

Boş qalan yerlərə 2-ci mərhələ vasitəsilə şagird qəbulunun 19 avqust tarixindən sonra həyata keçirilməsi planlaşdırılır.

# Xəzərin digər sahillərində də "Buzovna əməliyyatı"?!

## Hamını düşündürən sual: oliqarxların dəniz kənarındakı qanunsuz villaları və obyektləri bu ərazilərdə də söküləcəkmi...

***Ötən həftə Araz Əhmədovu Masallı, Əkbər Abbasovu Lerik və Elvin Paşayevi Göygöl rayon icra hakimiyyətlərinin başçısı təyin olunmaları ilə əlaqədar qəbul edərkən Prezident İlham Əliyev Buzovna qayalarının bəzi insanlar tərəfindən zəbt edilməsi ilə bağlı danışmışdı.***

"Bu yaxınlarda ictimaiyyətin bir qrup nümayəndəsi mənə müraciət etmişdir ki, böyük tarixə malik olan Buzovna qayaları bəzi insanlar tərəfindən zəbt edilmişdir. Mən Bakı Şəhər İcra Hakimiyyətinin başçısına dərhal göstəriş verdim ki, bu məsələ araşdırılsın, mənə məruzə edilsin və mənə məruzə edildi. Çox böyük pozuntular aşkarlandı, çox böyük pozuntular. Bu qanunsuz əməllərə kimlər əl atıb? Dövlət məmurları və bəzi dırnaqarası sahibkarlar! Onların da siyahısı var" - deyə ölkə başçısı bildirmişdi.

Dövlətimizin başçısı qeyd etmişdi ki, bu, tarixə qarşı, bizim təbiətimizə qarşı cinayətdir. Bu qayalar Bakının rəmzidir, bu qayalar əsrlər boyu sahilimizin gözəlliyini əks etdirirdi. Bu qayalara insanlar yaxınlaşırdı, orada filmlər çəkilirdi. Kimsə bunu zəbt edir, onları sındırır, özləri üçün villa tikir.

"Əfsuslar olsun ki, belə hallar çoxdur. Bu gün bir daha demək istəyirəm ki, bu hallara qarşı çox ciddi mübarizə aparılır. Çünki idarəetmədə çox ciddi islahatlar aparılır, çox böyük təmizləmə işləri aparılır. Bu işlərə rəvac verən və bəzi dövlət məmurlarını, yerli icra orqanlarını bu qanunsuz işlərə təhrik edən insanlar hakimiyyətdən uzaqlaşdırıldı. Hakimiyyət təmizlənir və insanlar da bunu görürlər", - deyə Prezident İlham Əliyev əlavə etmişdi.

Xatırladaq ki, Buzovna sakinlərinin dövlət başçısına müraciətindən sonra qanunsuz tikililərin sökülməsinə başlanıldığı barədə media bir müddətdir yazır. Ötən müddətdə xeyli hasar və villa sökülüb. Bundan başqa, Buzovna qayaları üzərində tikilən məşhur "Sherlocks" restoranı da artıq yoxdur.

Onu da deyək ki, iyunun 22-dən rəsmən başlayan söküntü işləri Bakı şəhəri və Xəzər rayon icra hakimiyyətləri tərəfindən həyata keçirilib. Bu barədə meriya tərəfindən yayılan rəsmi məlumatda deyilirdi ki, dəniz sahili ərazilərdəki vəziyyətlə bağlı Buzovna sakinlərinin müraciətləri ilə əlaqədar bu ərazilərdə inventarizasiya aparılıb. Qeyd edilib ki, vaxtı ilə, 10-15 il əvvəl burada bəzi insanlar tərəfindən dəniz kənarının hasarlanması, sahilə keçidlərin bağlanması, həmçinin qədim qayalıqların zibillənməsi hallarına yol verilib. Bu da haqlı narazılıqlara səbəb olur. Bəzi yerlərdə sakinlər qanunsuz olaraq əlavə torpaq sahələrini zəbt edərək öz həyətlərinə birləşdiriblər. Həm də dənizin geri çəkilməsi ilə əlaqədar sahilyanı ərazilər genişlənib.

Bildirilib ki, təmizlənən torpaq sahələri çimərlik ərazilərinə birləşdiriləcək və əraziyə nəzarət artırılacaq. Eyni zamanda neqativ hallara yol verilməsinin, ərazinin zibillənməsinin qarşısının alınması ilə bağlı vətəndaşlar arasında maarifləndirmə işlərinin gücləndirilməsi və pozuntulara yol verənlərin qanunamüvafiq qaydada cəzalandırılması nəzərdə tutulub.

Bu arada mütəxəssislər və sadə vətəndaşlar Buzovnadakı söküntülərin Xəzər dənizinin digər sahillərində də davam etdirilməsinə ümid bəsləyirlər. Məsələn, Şıxov və Sahil qəsəbələrindəki villaların da sökülməsinin zərurətindən danışılır. Həmin istiqamətdə, üstəlik, kifayət qədər uzun məsafədə (faktiki olaraq Şıxovdan Səngəçaladək!) dəniz boyunca hasarlar çəkilib, bir-birindən dəbdəbəli mülklər inşa edilib. Həmin villalar, eləcə də bir neçə restoran faktiki olaraq vətəndaşların dəniz sahillərinə çıxışını mümkünsüzə çevirir.



Bu villaların və obyektlərin bəzi keçmiş, eləcə də indiki iri məmurlara, biznesmenlərə aid olduğuna dair mətbuat çoxdan yazır. Həmçinin Bakının dəniz kənarında yerləşən digər kəndlərinin, qəsəbələrinin sakinləri "Buzovna əməliyyatı"nın həmin kənd və qəsəbələrə də çatacağına ümid bəsləyirlər. Məsələn, Novxanı qəsəbəsinin sakinləri və digər vətəndaşlar iddia edirlər ki, dənizin daha çox zəbt edilən ərazisi məhz Novxanının payına düşür. Onlar sual edir: bəs Novxanı nə vaxt hasarlardan və restoranların "işğalından" azad ediləcək?

Hər bir halda Buzovnadakı söküntülər Xəzərin digər sahillərində də dənizi, az qala, özününküləşdirərək imarətlər ucaldıb, obyektlər, o cümlədən restoranlar tikənlərə xəbərdarlıqdır. Bu o deməkdir ki, qarşıdakı dövrdə biz digər dənizkənarı ərazilərdə də oxşar söküntülərin şahidi ola biləcəyik.

***Sənan Mirzə***

**6.3.3. insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması;**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Məkəmələrdə ədalət tam təmin olunmalıdır!

## Əlməmməd Nuriyev: "Bir ilə bir hakim ortalama 1000-1200 məhkəmə işinə çıxır, nəticədə qərarların verilməsində ədalətin təmin olunması faizi aşağı düşür".

***Azərbaycan hüquqi dövlət olduğundan, ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsi prioritetdir. İnsanların hüquqlarının qorunması, azadlıqlarının müdafiəsi istiqamətində qanunvericilikdə kifayət qədər müddəalar yer alıb. Bəs görəsən bu istiqamətdə görüləcək daha hansı işlərə ehtiyac var?***



Konstitutsiya Araşdırmalar Fondunun rəhbəri Əlməmməd Nuriyev deyir ki, Azərbaycanın işğal olunmuş torpaqlarını azad etməsi, Qarabağa köçə start verməsi insan hüquqlarının qorunması istiqamətində atılmış ən böyük addımdır: "Bununla bir milyon qaçqın və məcburi köçkünün öz ata-baba yurdlarında, evlərində yaşamaq hüququ bərpa olunur. Bu kiçik hadisə deyil".

Ə. Nuriyev bildirir ki, ölkəmizdə insanların hüquq və azadlıqlarının müdafiəsi məqsədilə qanunvericilik sistemi təkmilləşdirilir. Cinayət Məcəlləsinə 600-ə yaxın dəyişikliklər edilib, Ombudsman institutunda canlanma yaranıb.Onun sözlərinə görə "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" dövlət başçısının 03.04.2019-cu il tarixli Fərmanı ədalət mühakiməsinin təkmilləşdirilməsi işinin müasir çağırışlara uyğun yeni mərhələdə təşkilini, o cümlədən kadr islahatlarının aparılmasını, hüquqların məhkəmə müdafiəsinin gücləndirilməsini şərtləndirib: "Fərmana uyğun olaraq mühüm qanunlar qəbul edilib, o cümlədən cəza siyasəti humanistləşdirilib, "Elektron Məhkəmə" informasiya sisteminin bütün ölkəni əhatə etməsi üçün tədbirlər görülüb. Hakimlərin iş yükünün azaldılması, işlərə daha keyfiyyətlə və çevik baxılması məqsədilə əlavə ayrılmış 200 yeni hakim ştatı yaradılıb".

Həmsöhbətimiz deyir ki, məhkəmələrdə ədalətin təmin olunması insan hüquq və azadlıqlarını təmin edən başlıca şərtlərdəndir: "Bu gün Azərbaycanda bir hakim aylıq 100-120 işə baxır. Bu dünya təcrübəsində görünməyən haldır. Bir ilə bir hakim ortalama 1000-1200 məhkəmə işinə çıxır. Bu da hakimlərin iş yükünü artırır. Nəticədə qərarların verilməsində ədalətin təmin olunması faizi aşağı düşür. Ona görə də, məhkəmələrdə hakimlərin sayının artırılması vacibdir. Bu məhkəmələrdə baxılan işlərdə verilən qərarların ədalətli olmasına müsbət təsir göstərəcək".

Fond rəhbəri son illər məhkəmələrlə bağlı aparılan islahatların səmərə verdiyini söyləyir. Onun sözlərinə görə, məhkəmə işlərinin audio formatda yazılması da məhkəmənin ədalətli aparılıb-aparılmadığına sübutdur.

Ə. Nuriyev onu da qeyd edir ki, inzibati-iqtisadi məhkəmələr əvəzinə ayrıca inzibati məhkəmələrin və kommersiya məhkəmələrinin yaradılması, məhkəmə-hüquq islahatlarının indiki mərhələsində ixtisaslaşmanın dərinləşdirilməsindən xəbər verir: "Bu Fərmanın əsas prinsiplərindən biri sahibkarların bütün dövlət qurumları, inzibati orqanlarla mübahisələrinə bu sahədə ixtisaslaşmış vahid bir məhkəmə instansiyasında baxılmasının təmin edilməsidir. Buna misal olaraq, kommersiya məhkəmələrinin yaradılması sahibkarların hüquqlarının təmin edilməsinin səmərəliliyini artırmaqla bütövlükdə ölkədə biznes mühitinin inkişafına önəmli töhfə verəcəkdir.

Beləliklə, ayrıca inzibati və kommersiya məhkəmələrinin yaradılması həm onlarda ixtisaslaşmanın artırılmasına şərait yaradacaq, həm də rayon məhkəmələrinin üzərinə düşən iş yükünün müəyyən dərəcədə azaldılmasına imkan verəcək. Bununla da bütövlükdə məhkəmə sistemində iş yükünün balanslaşdırılmış olmasına yardım edəcəkdir. Yeni məhkəmələrin yaradılması, apellyasiya və kassasiya instansiyası məhkəmələrində kollegiyaların tərkibinin dəyişməsi ilə bağlı müvafiq kadr islahatları da aparılacaqdır. Yeni hakim vəzifələrinə namizədlərin seçilməsi prosesi zamanı onların peşəkarlıq səviyyəsi qiymətləndiriləcək, müvafiq sahələrdə yüksək nəzəri və praktiki hazırlığın olmasına xüsusi diqqət yetiriləcəkdir. Bu isə dövrün tələbləri ilə ayaqlaşan hüquqşünasların hazırlanması üzrə işin gücləndirilməsini şərtləndirir, o cümlədən hüquq təhsili qarşısında yeni tələblər qoyur. Prezidentin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanında verilmiş tapşırıq və tövsiyələrə müvafiq olaraq, vətəndaşların hüquqlarının məhkəmələrdə daha etibarlı müdafiəsini təmin etməklə məhkəmələrə etimadın və məhkəmə sisteminin nüfuzunun daha da yüksəldilməsinə səbəb olacaq. Aparılan islahatlar ədalət mühakiməsinin keyfiyyətini və səmərəliliyini artırmaqla, ümumilikdə hüquq sisteminin inkişafına mühüm təsir göstərəcək".

Ə. Nuriyev deyir ki, bu gün təkcə məhkəmələrlə bağlı aparılan istlahatlar yox, dövlət qurumlarının qəbul sisteminin təkmilləşdirilməsi, qəbul otaqlarının yaradılması da vətəndaşların pozulmuş hüquqlarının bərpasına kömək edir. Həmsöhbətimiz bildirir ki, ASAN Xidmət modelinin yaradılması rüşvət və qanunsuzluqların aradan qaldırılmasına gətirib çıxardıb.

Bununla belə, Fond rəhbəri görülməli işlərin də olduğunu söyləyir. Bildirir ki,cəmiyyətdə ədalətli məhkəmə sisteminə inam yaratmaq üçün ədalətli qərarların verilməsi, məmur süründürməçiliyinin qarşısı alınmalı, məhkəməyə edilmiş müraciətlərə vaxtında baxılması üçün hakimlərin sayı artırılmalıdır. Həmçinin cəzaların yüngülləşdirilməsi istiqamətində də işlər davamlı xarakter almalıdır. Hüququn aliliyinin təmin olunması üçün bütün zəruri tədbirlər həyata keçirilməlidir.

***Glayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Jurnalistikaya qəbul üzrə qabiliyyət imtahanının nəticələri açıqlandı

***Dövlət İmtahan Mərkəzi (DİM) 2022/2023-cü tədris ili üçün ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin jurnalistika ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün iyulun 31-də keçirilən qabiliyyət imtahanının nəticələrini elan edib.***

Mərkəzdən "Unikal"a bildirilib ki, abituriyentlər DİM-in saytında imtahan nəticələri ilə tanış ola bilərlər. İmtahanda iştirak etmək hüququ qazanmış 703 abituriyentdən 135 nəfəri imtahana gəlməyib. İmtahanda iştirak edən abituriyentlərdən 532 nəfər "məqbul" qiymət alıb.

Məqbul qiymət alan abituriyentlər ixtisas seçimi zamanı öz elektron ərizələrində digər ixtisaslarla yanaşı jurnalistika ixtisasını da seçə bilərlər. İxtisas seçimi avqustun 16-dan 28-dək davam edəcək.

İmtahan nəticələri ilə bağlı müraciətlərə baxılması üçün DİM tərəfindən 8 avqust 2022-ci il tarixindən etibarən onlayn ("Zoom" proqramı və ya telefon əlaqəsi vasitəsilə) apellyasiya prosesi təşkil ediləcək.

Apellyasiya komissiyasına müraciət etmək istəyənlər 5 avqust saat 10:00-dan 7 avqust saat 17:00-dək DİM-in saytında yerləşdiriləcək elektron ərizəni doldurmaqla qeydiyyatdan keçə bilərlər. Göstərilən müddət ərzində qeydiyyatdan keçməyənlər sonradan apellyasiya üçün müraciət edə bilməyəcəklər.

Bir abituriyentin ərizəsi (müraciəti) üzrə ən çox 15 dəqiqə müzakirə aparıla bilər. Ayrılan vaxt bitdikdə, kənar şəxs müzakirəyə qoşulduqda və ya etik davranış qaydaları pozulduqda müzakirə prosesi dayandırılır.

## DSX hərbi hissələrində andiçmə mərasimi keçirildi

***Dövlət Sərhəd Xidmətinin Göytəpə şəhərində və Yevlax rayonunda yerləşən hərbi hissələrində gənc əsgərlərin andiçmə mərasimi keçirilib.***

Xidmətin mətbuat mərkəzindən "Unikal"a verilən xəbərə görə, gənc əsgərlər təntənəli şəkildə hərbi anda gətirildikdən sonra Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin təbriki şəxsi heyətə çatdırılıb.

Çıxış edənlər gənc əsgərlərin Dövlət Sərhəd Xidmətinin heyəti sırasına daxil olmalarının sərhəd mühafizəsinin 103-cü ildönümünə təsadüf etdiyini, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Vətən Müharibəsində işğalçı düşmən qüvvələrinə qarşı mətinliklə döyüşmüş sərhədçilərin müqəddəs torpaqlarımızda dövlət sərhədlərinin toxunulmazlığını ən yüksək səviyyədə təmin etdiklərini vurğulayıb.

Tədbirdə Vətənə, dövlətə sədaqət andı içərək müqəddəs sərhədlərimizi şərəflə qorumaq məsuliyyətini öz üzərinə götürən gənc əsgərlərin hərbi anda daim sadiq qalacaqlarına əminlik ifadə olunaraq onlara müvəffəqiyyətlər arzulayıb.

Andiçmə mərasimi gənc əsgərlərin təntənəli marşla tribuna önündən keçidi ilə başa çatdırıb.

# Ağalıya daha 727 nəfər köçürüləcək - RƏSMİ



***Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Zəngilan rayonunun Ağalı kənd sakinlərinin sosial-iqtisadi, təhsil, demoqrafik vəziyyəti, cari gəlirgətirən fəaliyyət, özünüməşğulluq və məşğulluq səviyyəsinin müəyyən edilməsi, ehtiyaclarının qiymətləndirilməsi və mərhələli qayıdışla bağlı fikirlərinin öyrənilməsi məqsədilə sorğular keçirir.***

Dövlət Komitəsindən “Unikal”a verilən məlumata görə, sorğulara 16-63 yaş aralığında olan şəxslər cəlb olunublar.

Dövlət Komitəsinin Birləşmiş Millətlər Təşkilatının (BMT) Qaçqınlar üzrə Ali Komissarlığı (QAK) ilə birgə pilot metodologiyalarla hazırladığı sorğular, üzbəüz müsahibələr, masa araşdırmaları və fokus-qrup görüşləri Ağalı kənd əhalisinin sıx məskunlaşdığı Bakı, Sumqayıt şəhərlərində, Abşeron və Beyləqan rayonlarında aparılır.

Ümumilikdə “ağıllı kənd” konsepsiyası əsasında salınan Ağalı kəndinə daha 727 nəfər sakinin köçürülməsi nəzərdə tutulur. Həmin sakinlərdən əmək qabiliyyətli 492 nəfərin ehtiyaclarının qiymətləndirilməsinə və müvafiq olaraq, onların məşğulluğunun səmərəli təmin edilməsi üçün müvafiq sorğu-anketlər keçirilir.

Belə ki, yekun mərhələdə sorğuların nəticələri təhlil ediləcək, əmək qabiliyyətli hər bir məcburi köçkünün bilik və bacarıqlarının təkmilləşdirilməsi, uyğun məşğulluq fəaliyyəti ilə təmin olunması üçün aidiyyəti qurumlarla birgə əmək yarmarkaları, işəgötürənlərlə görüşlər və müvafiq digər optimal tədbirlər həyata keçiriləcəkdir.

Sorğuların bu ilin avqust ayı ərzində yekunlaşdırılması nəzərdə tutulur.

# Bu yerlərdə tonqal yandırmaq qadağan olunur



***Şuşa Şəhəri Dövlət Qoruğunun mühafizə zonasında müəyyən edilmiş yerlərdən kənarda çadırların qurulmasına və tonqalların yandırılmasına icazə verilməyəcək.***

“Unikal”ın məlumatına görə, bu barədə Nazirlər Kabinetinin “Şuşa Şəhəri Dövlət Qoruğunun mühafizə zonasının mühafizə rejimi”nin təsdiq edilməsi haqqında” qərarında qeyd olunub.

Qərara əsasən, mühafizə zonasında İdarə tərəfindən müəyyən edilmiş yerlərdən kənarda nəqliyyat vasitələrinin hərəkətinə, dayanacaqların təşkilinə, çadırların qurulmasına və tonqalların yandırılmasına yol verilmir.

Sənəddə, həmçinin qeyd edilib ki, mühafizə zonasında həyata keçirilən işlər Qoruğun ümumi ərazisinə, Şuşa şəhərinin inzibati sərhədlərinə və Şuşa şəhərinin Baş planında müəyyən edilmiş ərazi zonalaşdırılmasına, müfəssəl həllərə və ümumi memarlıq kompozisiyasına uyğun olmalı və Qoruğun mövcud həcm-məkan ölçülərini pozmamalıdır.

# 28 cinayətin üstü illər sonra açılıb



***Avqustun 3-də ölkə ərazisində qeydə alınan cinayətlərdən 60-nın, eləcə də əvvəlki dövrlərdən bağlı qalan cinayətlərdən 28-nin açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.***

Daxili İşlər Nazirliyindən (DİN) verilən məlumata görə, axtarışda olduğuna görə ümumilikdə 39, o cümlədən borclu şəxs qismində axtarışda olan 28 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Narkotiklərlə əlaqəli 23, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 3 fakt müəyyən edilib. Cinayət törətməkdə şübhəli bilinən 64 nəfər saxlanılıb.

# Zəngəzur dəhlizi artıq reallığa çevrilir

***Ali Baş Komandan cənab İlham Əliyevin yüsək sərkərdəlik bacarığı nəticəsində xalqımızın 30 illik həsrəti sona çatdı. Lakin əvvəlki günlərə, ürəkaçan yerlərə getmək biraz zaman alacaqdır. Bəs bu qədər gözləməyimizin səbəbi nədir? Təbiki ermənilərin törətdikləri vəhşiliklər, evlərimizin viran qoyulması..***

Ermənistan Azərbaycan torpaqlarının 30 illik işğalı zamanı şəhər və kəndləri qəsdən dağıdaraq, hər bir mədəni və dini abidəni talan edərək həmin əraziləri urbisid və kultursidin



bariz nümunəsinə çevirib. Azərbaycanın 9 şəhəri və yüzlərlə kəndi yer üzündən silinib. Ağdam şəhəri o dərəcədə dağıdılıb ki, əcnəbi mütəxəssislər onu “Qafqazın Hiroşiması” adlandırıblar. Füzuli şəhəri işğaldan azad edildikdən sonra Azərbaycan Ordusu orada bayrağımızı dalğalandırmağa bir dənə də olsun tikili tapa bilməyib. Xarici diplomatlar, jurnalistlər və beynəlxalq QHT-lərin nümayəndələri azad edilmiş ərazilərə səfərləri zamanı bu vandalizmin şahid olmuş və dağıntıların tam miqyasını sənədləşdirmişlər.

İşğaldan azad edilən torpaqların yenilənməsi , yenidənqurma prosesində ölkəmizin hədəfi keyfiyyət və süreti birləşdirməkdir. Tez bir zamanda əhalinin öz dədə-baba torpaqlarına qayıtması üçün şəhərsalma planı sürətlə davam edir.

Yenidənqurma prosesinin ilk məqsədi torpaqlarımızı minalardan təmizləməkdir. Kütləvi minalanma qarşımızda duran ən böyük çətinlikdir və bu, yenidənqurma işlərini, məcburi köçkünlərin qayıdışını ləngidir. İlkin hesablamalara görə, işğal dövründə Ermənistan həmin ərazilərə bir milyondan artıq mina basdırıb. 2020-ci ilin noyabr ayında Vətən müharibəsi başa çatdıqdan sonra mina partlaması nəticəsində 220-dən artıq Azərbaycan vətəndaşı həlak olub və ya ağır yaralanıb.

Tarixi qələbəmizin önəmli nəticələrindən biri Zəngəzur dəhlizinin açılması məsələsidir. Zəngəzur üzərindən həm dəmir yolu, həm avtomobil yolu məsələsi ilə bağlı aprelin 6-da Brüsseldə geniş fikir mübadiləsi aparılmışdır.

Bu barədə Prezident İlham Əliyev bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə bildirib.

Dövlət başçısı deyib: “İran üzərindən yolun Naxçıvana çəkilməsi və oradan dünya bazarlarına çıxarılması layihəsi də artıq hazırlanır. Ümid edirəm ki, yaxın gələcəkdə təməlqoyma mərasimi də keçirilə bilər və beləliklə, yeni beynəlxalq nəqliyyat dəhlizi açılacaqdır. Ümumiyyətlə, bizim nəqliyyat infrastrukturu ilə bağlı olan bütün planlarımız vaxtlı-vaxtında yerinə yetirildi. Əgər bu gün həm limana, həm dəmir yollarına, həm hava limanlarına, avtomobil yollarına və digər infrastruktura bu böyük investisiyalar qoyulmasaydı, Azərbaycan, əlbəttə ki, yeni yaranan bu imkanlardan məhrum ola bilərdi. Ancaq, əksinə, biz bu gün öz nəqliyyat infrastrukturumuzu maksimum işə sala bilərik. Gəmiqayırma zavodunda yeni yük gəmiləri, tankerlər inşa edilir. Yəni, bütün bunlar vaxtında atılmış addımlardır. Əgər biz gəmiqayırma zavodunu inşa etməsəydik, bu gün bu imkanlardan istifadə edə bilməzdik. İndi isə biz heç kimdən asılı deyilik. Nə qədər istəsək, o qədər də bərə, tanker, yük gəmisi inşa edə bilərik və Xəzər üzərindən yükdaşımaların həcmini bu il artıracağıq və gələn il daha da artıracağıq”.

Azərbaycan Vətən müharibəsində Qələbədən və Ermənistanla münaqişənin həllindən sonra Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması və bərpası, o cümlədən beynəlxalq nəqliyyat əlaqələrinin inkişafı üzrə genişmiqyaslı işlər görməyə başlayıb.

Zəngəzur dəhlizinin açılması təkcə Azərbaycanın yox, əslində, dünya ictimaiyyətinin də tələbidir. Çünki o, təkcə Cənubi Qafqazda yox, bütün Avrasiyada böyük əhəmiyyətə malik yeni kommunikasiya xəttidir. Bu mənada Ermənistanın dəhlizlə bağlı müqavimət cəhdləri əbəsdir və Azərbaycan sonda istəyinə nail olacaq. Digər tərəfdən Zəngəzur dəhlizi regionda sülhün təməl sütunlarından biri olmaqla yanaşı, bölgə dövlətləri arasında iqtisadi, ticarət əlaqələrini inkişaf etdirmək, Ermənistanın özünün 30 ilə yaxın davam edən təcrid vəziyyətindən yaxa qurtarmasında mühüm rol oynayacaq. Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirməklə yanaşı, Ermənistan üçün əlavə imkanlar yaradacaq. Bu, ağır sosial-iqtisadi durumda olan Ermənistan üçün olduqca vacibdir. Məhz bu səbəbdən əngəl yaratmaq əvəzinə Zəngəzur dəhlizinin mümkün qədər tez istifadəyə verilməsində Ermənistan daha çox maraqlı olmalıdır.

Prezident İlham Əliyevin 29.06.2022-ci il tarixində Aşqabadda keçirilmiş Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında çıxışı zamanı da bu məsələyə toxunmuş və hər bir hərəkətimizin planlı addımlarla atıldığını bildirmişdir.

***Sevinc Hacızadə***

# Rayonlarda əkin sahələrinin suvarılması davam edir

***Qazaxda əkin sahələrinin suvarılması davam edir. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, Qazax Suvarma Sistemləri İdarəsi rayonun kənd təsərrüfatı bitkiləri əkilmiş 18911 hektar torpaq sahələrinin suvarılmasına xidmət edir.***

Bu sahələrin suvarılması üçün beş mənbədən Ağstafaçay, Coğaz çay, İncə su çay, Kür, Xram çayı və su anbarlarından su götürülür. Suvarılan sahələrin 7103 hektarı mexaniki üsulla, yəni nasos stansiyaları vasitəsi ilə,11808 hektarı isə açıq kanallar vasitəsi ilə öz axımı ilə suvarılır. İdarə tərəfindən əkin sahələrinin suvarılması prosesini daha intensiv və səmərəli aparmaq üçün mütəmadi olaraq suvarma kanallarında lildən təmizlənmə işləri davam etdirilir. Hazırda texnikaların köməyi ilə uzunluğu 8 km olan Yuxarı Salahlı Nasos arxında bu işlər davam etdirilir.



Qazax Suvarma Sistemləri İdarəsinin balansında 21 ədəd nasos stansiyası var. Hazırda həmin nasos stansiyalardan 19 ədədi işlək vəziyyətdədir və fəaliyyət göstərir. Bundan başqa idarənin balansında olan 205 ədəd subartezian quyusundan da istifadə olunur. Subartezian quyuları vasitəsi ilə 587 ha həyətyanı və pay torpaq sahələri suvarılır, eyni zamanda məişət suyu kimi də istifadə edilir. Hazırda mövsümə uyğun olaraq arx və kanallarda, hidrotexniki qurğularda, nasos stansiyalarda cari təmir işləri aparılır. Qazax rayonunda bu mövsüm əkilən kənd təsərrüfatı təyinatlı bitkilərin suvarılması normaya uyğun olaraq aparılıb və hazırda da davam edir. Fermerlər bu il rayonda əkilən kartof bitkisindən yüksək məhsuldarlıq gözləyirlər. Sahələrə vaxtında verilən su bunu deməyə əsas verir.

Qeyd edək ki, Qazax Suvarma Sistemləri İdarəsi tərəfindən 17 ədəd hidrotexniki qurğularda, 38 ədəd subartezian quyularında və 2,9 km beton kanallarda cari təmir işləri aparılıb və işlər davam edir.

Goranboyda Safıkürd su anbarına 12 ildən sonra ilk dəfə kifayət qədər su toplanıb. Dilqəm Şərifov bildirib ki, Goranboy Suvarma Sistemləri İdarəsi tərəfindən cari ilin 6 ayında əkin sahələrinə 958 ədəd subartezian quyuları vasitəsi ilə 190 min kub metr, 16 ədəd nasos stansiyalar vasitəsi ilə 19 min kub metr, təbii su mənbələrindən isə 18500 min kub metr su verilib. Suvarmanın mütəşəkkil aparılması üçün idarənin texnikaları ilə suvarma kanallarında lildən təmizləmə, nasos stansiyalarda və 380 ədəd subartezian quyularının nasoslarında təmir işləri aparılıb. Bu il 12 ildən sonra Goranboy rayonunda yerləşən Safıkürd su anbarına ilk dəfə olaraq kifayət qədər su toplanıb. Bu da 20 min hektara yaxın sahənin suvarılmasına imkan yaradacaq.

Goranboy Suvarma Sistemləri İdarəsi rayon ərazisindən axan çay məcralarının təmizlənməsi istiqamətində də bir sıra işlər görür. Belə ki, Goran çayda uzun müddətli gələn sel sularının gətirdiyi lil qatı çay məcrasından texnikalar vasitəsi ilə çıxarılır. Görülən işlər təqribən 500 metrə yaxın məsafəni əhatə edir. Çay məcrasının təmizlənməsi nəticəsində suyun axınının da tənzimlənməsi həyata keçirilir. Hazırda lildən təmizləmə işlərinə 2 texnika cəlb olunub.

Qeyd edək ki, Goranboy Suvarma Sistemləri İdarəsi rayonun 66500 hektar əkin sahələrinin suvarılmasına xidmət edir. Bu sahələrin suvarılması çaylar, kanallar, nasos stansiya və subartezian quyuları vasitəsi ilə həyata keçirilir.

Türyançayda tənzimləmə işləri görülür, sağ və sol sahilə bəndlər vurulur. Dilqəm Şərifov bildirib ki, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin tabeliyində olan Bakı İxtisaslaşdırılmış Elektrik Avadanlıqları və Təmir-Quraşdırma və Sazlama İdarəsi Ağdaş rayonu ərazisindən keçən Türyançay çayında tənzimləmə tədbirlərini davam etdirir. Bu məqsədlə idarənin 5 ədəd texnikası çay məcrasına cəlb olunub. Çayın məcrasının genişlənərək ətraf ərazilərə zərər vurmaması üçün çayın mərkəzində olan təqribən 60-70 metr enində adaları ekskovatorlar bir-birinə ötürür, buldozer isə dambalara qaldırır. Daha sonra çayın məcrasında hamarlanma işləri aparılır. Çayın sağ və sol sahilinə vurulan bu bəndlər yarana biləcək sel təhlükəsinin də qarşısını almış olur.

Qeyd edək ki, Meliorasiya və Su Təsərrüfatı ASC-nin tabeliyində olan Bakı İxtisaslaşdırılmış Elektrik Avadanlıqları və Təmir-Quraşdırma və Sazlama İdarəsinin Türyançay çayında gördüyü işlərin məqsədi ətrafda olan kənd əhalisinin torpaqlarının mühafizəsini təmin etməkdən ibarətdir. Əgər bu işlər görülməzsə çay məcrasından gələn sel suları həmin torpaqları erroziyaya uğradaraq aşınmaya səbəb ola bilər. Erroziyaya uğrayan torpaqlar isə yeyilərək əkin sahələrinə ziyan vura bilər. Hazırda idarənin tədbirlər planına uyğun olaraq təxirəsalınmaz işlər davam edir.

***Hüseyn İsgəndərov***



# 24 yaşlı qəhrəmanın vətən sevgisi

***Sirus Hamil oğlu Şirbəylini İkinci Qarabağ müharibəsində cəng meydanına Vətən sevgisi harayladı. Yardımlının Zevin kəndində dünyaya göz açmış bu dağlar qartalı müharibənin ilk günündə döyüş meydanına atılır, qələbəyə bir addım qalmış şəhidlik zirvəsinə ucalır.***

Bununla da 24 illik ömür yolu qəhrəmanlıq məktəbi kimi tarixə yazılır. Beləcə ürəklərdə yurd-yuva quran Sirus dövlət tərəfindən də ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medallara layiq görülür.

Mərdlik, cəngavərlik ruhuna, qanına bu ulu yurdun vüqarı ilə hopmuş Sirus Şirbəyli 2013-cü ildə canından əziz bildiyi Vətənin keşiyinə yollanır. Sərhəd Qoşunlarında övladlıq borcunu ləyaqətlə yerinə yetirir. Nümunəvi əsgər olaraq yalnız özünə hörmət qazandırır. Düşməndən qisas almaq istəyi hər an Sirusu düşündürür. Məhz əsgərlikdən sonra özünü hərbiyə bağlamağı da bundan irəli gəlir. Naxçıvan Muxtar Respublikasında kəşfiyyatçı xüsusi təyinatlı kimi xalqına, doğma Azərbaycanın hər qarışına məhəbbət hissini ürəyində yaşatmaqla təlimlərdə fərqlənir, nümunəvi hərbiçi kimi xüsusi peşəkarlığı ilə seçilir. Hər əməlində əsl vətəndaş, mənəvi cəhətdən zəngin insan, vətənpərvər əsgər olduğunu sübut edir...

Yardımlının qəhrəman oğlu 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində birinci gündən ən qaynar nöqtələrə can atır. Və erməni dığalarla sona qədər döyüşüb qisas alacağına and içir. Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə xüsusi qəhrəmanlıq göstərir. Ağır müharibələrin qalibi olur. Göstərdiyi hünər, yağı düşmənə vurduğu zərbələr gündən-günə artır. 7 noyabr 2020-ci ildə Şuşanın azad edilməsi uğrunda gedən ağır müharibədə döyüş tapşırığını yerinə yetirərkən şəhidlik zirvəsinə ucalır . 11 noyabr 2020-ci ildə Yardımlı rayon Zevin kənd qəbiristanlığında dəfn olunur. İndi onun yatdığı torpağı Yardımlı camaatı ən müqəddəs yer bilir.

***Zəfər Orucoğlu, AJB üzvü***

# "Azərkosmos" Aralıq dənizində peyk rabitə xidmətlərinə start verdi



***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Azərkosmos və İsveçrənin "Signalhorn" şirkəti arasında növbəti əməkdaşlıq müqaviləsi imzalanıb.***

"Unikal" xəbər verir ki, müqaviləyə əsasən "Signalhorn" şirkəti "Azerspace-1" peykinin Avropa yayım şüası üzərindən dənizdə internet xidmətləri təqdim etməyə başlayıb. Azerspace-1 peykinin resursları "Signalhorn" şirkətinə məxsus teleportdan birbaşa Aralıq dənizində hərəkət edən kruiz gəmilərinə ötürülür.

Qeyd edək ki, Azərkosmos qlobal peyk rabitəsi bazarının əsas seqmentlərindən biri olan dənizdə genişzolaqlı rabitə imkanlarını təkmilləşdirməyə davam edir. Hazırda "Azerspace-1" və "Azerspace-2" peykləri vasitəsilə Xəzər, Qara və Azov dənizləri, İran körfəzi, Volqa çayı və Aralıq dənizinin şərq hissəsində hərəkət edən gəmilərdə etibarlı və stabil internet xidmətləri təqdim edilir.

# "Ukrayna hərbçiləri nüvə obyektlərinə hücum edib" - Vişnevetski



***Ukrayna hərbçiləri ölkənin nüvə obyektlərinə hücum edib.***

"Unikal" xəbər verir ki, bunu Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Nüvə Silahlarının Yayılmaması və Silahlara Nəzarət Departamentinin direktor müavini İqor Vişnevetski deyib.

Onun sözlərinə görə, ukraynalı diversantlar Zaporojye atom elektrik stansiyasına bitişik binadan atəş açıblar: "Bir qədər sonra, Ukrayna hərbçiləri Çernobıl Atom Elektrik Stansiyasında işlənmiş yanacaq soyutma sistemini qidalandıran ötürücü xətti partladıblar".

O, qeyd edib ki, Ukrayna tərəfinin növbəti hücumu aprelin 27-də baş verib. Sonra hərbçilər Zaporojye stansiyası istiqamətinə iki pilotsuz təyyarə göndəriblər. Onlardan biri Enerqodar şəhəri yaxınlığında vurulub. Hər iki təyyarə hücum təyyarəsi sistemləri idi. Bildirilib ki, Ukrayna Silahlı Qüvvələri iyulun 18-i və 20-də Zaporojye AES-ə daha iki hücumu müşahidə edilib.

*Ağarza Elçinoğlu*

# Peruda baş nazir istefa verdi



***Peruda son bir ildə 4-cü baş nazir istefa verib.***

"Unikal" xəbər verir ki, Perunun baş naziri Anibal Torres Peru prezidenti Pedro Kastilyoya təqdim etdiyi məktubda şəxsi səbəblərə görə baş nazir postunu tərk etmək istədiyini bildirib.

Fevral ayında baş nazir postunu tutan Torres bu vəzifəyə layiq görüldüyü üçün prezidentə təşəkkür edib. Torres Kastilonun ofisini tərk edən 4-cü baş nazir kimi tarixə düşüb.

Ona qarşı korrupsiya ittihamları və prokurorluğun apardığı araşdırmalar fonunda baş verən bu hadisədən sonra Kastilonun istefaya razılıq verəcəyi, daha sonra ölkənin yeni baş nazirinin müəyyənləşəcəyi gözlənilir.

*Gülayə Mecid*

# Paşinyan sülhməramlıların fəaliyyətindən gileyləndi

***"Qarabağdakı son olaylar Rusiya sülhməramlılarının fəaliyyəti ilə bağlı bir sıra suallar doğurur".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın Baş naziri Nikol Paşinyan hökumətin iclasında bildirib.

"İrəvan 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatına əsasən regionda sülhün bərqərar olmasından yanadır", - deyə o qeyd edib. N.Paşinyan həmçinin Ermənistanın Azərbaycanın qərb hissəsi ilə Naxçıvan arasında əlaqəni təmin etməyə hazır olduğunu vurğulayıb.

# Taliban və İŞİD arasında toqquşma: Ölənlər var

***Əfqanıstanın paytaxtı Kabildə Taliban üzvləri ilə terror təşkilatı İŞİD yaraqlıları arasında şiddətli qarşıdurma baş verib.***

"Unikal" xəbər verir ki, hadisə ilə bağlı şəxsi Tvitter hesabında açıqlama verən Taliban sözçüsü Zəbihullah Mücahid burada İŞİD-ın hücrəsinə əməliyyat keçirildiyini, 4 İŞİD terrorçusunun öldürüldüyünü, 1 terrorçunun isə ələ keçirildiyini bildirib.

İŞİD terrorçularının bu bölgədə intensiv şəkildə yaşayan və Məhərrəm ayı qeyd etmək üçün toplaşan şiələrə hücum etməyi planlaşdırdıqlarını bildirən Mücahid, əməliyyat nəticəsində çoxlu sayda silah-sursatın məhv edildiyini qeyd edib.

Mücahid Taliban üzvləri ilə bağlı ölən və yaralananlar barədə məlumat paylaşmayıb.

# Pelosinin əri həbs edilə bilər - KİV

***Nensi Pelosinin əri sərxoş vəziyyətdə avtomobil idarə etdiyi üçün mühakimə olunur.***



"Unikal" xəbər verir ki, bu barədə "CBS News" məlumat yayıb. Məhkəmədə bildirildiyi kimi, Pol Pelosi may ayında "Porsche"ni "Jeep"ə çırpıb, lakin o, Şimali Kaliforniyada sərxoş vəziyyətdə avtomobil idarə etməkdə təqsirli olmadığını bildirib.

Prokurorluq hadisəni "Jeep"in sürücüsünün aldığı xəsarətlərə görə yüngül cinayət hesab edib. Məlumata görə, 82 yaşlı Paul Pelosi təqsirli bilinərsə, onu ən azı beş gün həbs və beş ilə qədər sınaq müddəti gözləyir.

Qəzadan sonra həbs olunan Pelosi 5 min dollar girov müqabilində sərbəst buraxılıb.O, son məhkəmə iclasında şəxsən iştirak etməyib.

Xatırladaq ki, Nensi Pelosinin Tayvana tarixi səfəri bir gün əvvəl başa çatıb. Pelosi 25 ildə adaya səfər edən ən yüksək rütbəli Amerika siyasətçisi olub. Onun gəlişi ilə əlaqədar Çin ABŞ səfirini çağıraraq Tayvan ətrafında hərbi təlimlər keçirəcəyini elan edib.

Çin də Tayvana qarşı sanksiyalar tətbiq edib.

*Gülayə Mecid*

# Belarus döyüş hazırlığını yoxlamağa başlayıb

***Belarus Silahlı Qüvvələri xüsusi təyinatlı qüvvələrin bölmələrinin döyüş hazırlığının yoxlanılmasına başlayıb.***



"Unikal" xəbər verir ki, bu barədə Ukrayna Silahlı Qüvvələrin Baş Qərargahı məlumat yayıb. Volın və Poliske istiqamətlərində Belarus Silahlı Qüvvələrinin bölmələri Belarus-Ukrayna sərhədinin Brest və Qomel vilayətlərindəki hissəsinin mühafizəsinin gücləndirilməsi tapşırığını yerinə yetirməkdə davam edir.

"Belarus Respublikası Silahlı Qüvvələrinin xüsusi əməliyyat qüvvələrinin bölmələrində döyüşə hazırlıq yoxlanılıb", - məlumatda deyilir.

Xatırladaq ki, Ukrayna Xarici İşlər Nazirliyinin rəhbəri Dmitri Kuleba bir daha Belarusun Ukraynaya qarşı təcavüz cinayətində şərik olduğunu bəyan edib və Ukraynaya müdaxilənin nəticələri barədə xəbərdarlıq edib.

Bir müddət əvvəl özünü Belarus prezidenti elan edən Aleksandr Lukaşenko NATO ölkələrinin guya Rusiyaya qarşı müharibəyə hazırlaşdığını bildirmişdi. "NATO hücumunun" əsas istiqamətləri isə Belarus və Ukraynadan keçəcək. Həmçinin Belarus Təhlükəsizlik Şurasının dövlət katibi, Kremlin Belarus üçün "gözətçisi" adlandırılan Aleksandr Volfoviç əmin edib ki, respublikadan Ukraynaya heç bir təhlükə yoxdur.

# Livan oğurlanmış Ukrayna taxılının olduğu gəmini ələ keçirib



***Livan Ukraynadan oğurlanmış taxıl daşıyan "Laodecia" gəmisini ələ keçirib.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna XİN məlumat yayıb. Nazirlik bildirir ki, təqdim edilən sübutlara baxmayaraq, Livan məhkəməsi Ukraynanın səlahiyyətli orqanlarının mövqeyini nəzərə almayıb və gəmini müsadirə edib:

"Bu qərar əslində Rusiyanı cəzasızlıq hissi ilə Ukraynanın müvəqqəti işğal olunmuş cənubunda oğurluqları davam etdirməyə sövq edir. Bundan əlavə, belə bir qərarla Livan faktiki olaraq öz ərzaq təhlükəsizliyini pozur, Ukraynanı etibarlı tərəfdaşı kimi uzaqlaşdırır", - Xarici İşlər Nazirliyi vurğulayıb.

*Gülayə Mecid*



# Türkiyə ordusu 2 PKK terrorçusunu məhv etdi

***Türkiyə Silahlı Qüvvələri Suriyanın şimalında iki PKK terrorçusunu məhv edib.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi tviterdə bildirib.

"Barış bulağı bölgəsinə qarşı hücum hazırlayan 2 PKK/YPG terrorçusu zərərsizləşdirildi", - paylaşımda deyilir.

# "Qarabağ" ÇL-də ən yaxşılar arasında

***UEFA Çempionlar Liqasının 3-cü təsnifat mərhələsinin ilk oyunlarından sonra 2022/23 mövsümündə turnirdə ən çox qol vuran komandaların siyahısını açıqlayıb.***

Ən yaxşılar arasında Azərbaycan təmsilçisi "Qarabağ"da var. Ağdam klubu yeni mövsümdə çıxdığı 5 matçda ümumilikdə 11 qol vurub. "Qarabağ"ın 3-cü mərhələdəki rəqibi "Ferentsvaroş" da 11 qola imza atıb. Ona görə də "Qarabağ" Macarıstan təmsilçisi ilə birlikdə



sıralamada 3-cüdür.

1-ci yerdə Norveç "Bodo Qlimt"idir - 17 qol. "Vikinqur" (İslandiya) isə 2-ci pillədə yer alıb - 12 qol.

"Qarabağ" künc zərbələrinin sayına görə liderdir. Onlar 5 matçda 38 dəfə künc zərbəsi yerinə yetiriblər.

Bunu da qeyd etmək lazımdır ki, Azərbaycan təmsilçisi ən çox kobudluğa məruz qalan və ən çox faul edən komandadır. 71 dəfə qayda pozan "Qarabağ"a qarşı 74 dəfə də qayda pozulub.

# "Makkabi" və "Dinamo"dan qələbə, "Pünik" darmadağın oldu

***Bu gün Çempionlar Liqasında 3-cü təsnifat mərhələsinin ilk matçlarına yekun vurulub. 2-ci oyun günündə də 5 görüş keçirilib.***

Azərbaycan çempionu "Qarabağ" "Ferentsvaroş"u (Macarıstan) qəbul edib. Oyun 1:1 hesabı ilə başa çatıb. Norveçin "Bodo Qlimt" klubu "Jalqris"i evdə darmadağın edib - 5:0.

"Makkabi"(Hayfa) isə Kipr çempionu "Apollon"u üstələyib - 4:0.

İkinci mərhələdə "Fənərbaxça"nı mübarizədən kənarlaşdıran Kiyev "Dinamo"su bu dəfə "Şturm"dan güclü olub. Serbiya çempionu "Srvena Zvezda" isə Ermənistanın "Pünik" klubunu darmadağın edib.

**Çempionlar Liqası**

3-cü təsnifat mərhələsi, ilk oyunlar

**3 avqust**

20:00. "Qarabağ" (Azərbaycan) - "Ferentsvaroş" (Macarıstan) - 1:1

Qollar: Boli, 17 (0:1), Ovusu Kvabena, 34 (1:1)

20:00. "Budyo Qlimt" (Norveç) - "Jalgiris" (Litva) - 5:0

Qollar: Uqo Vetlesen, 33-pen. Amal Pelleqrino, 36. Lars-Yorgen Salvesen, 58. Marius Höybroten, 61. Runar Espeyor, 90+3

21:00. "Makkabi" (Hayfa, İsrail) - "Apollon" (Kipr) - 4:0

Qollar: Matyö Pebern, 38 (avtoqol). Əli Məhəmməd, 54; 62. Frantsdi Pyero, 79

22:00. "Dinamo" (Kiyev, Ukrayna) - "Şturm" (Avstriya) - 1:0

Qol: Aleksandr Karavayev, 28

22:45. "Srvena Zvezda" (Serbiya) - "Pünik" (Ermənistan) - 5:0

Qollar: Osman Bukari, 29; 44; 70. Kinqs Kanqva, 33. Stefan Mitroviç, 77

**2 avqust**

"Şerif" (Moldova) - "Viktoriya" (Plzen, Çexiya) - 1:2




"Ludoqorets" (Bolqarıstan) - "Dinamo" (Zaqreb, Xorvatiya) - 1:2

"Monako" (Fransa) - PSV (Niderland) - 1:1

"Yunion" (Belçika) - "Reyncers" (Şotlandiya) - 2:0

"Benfika" (Portuqaliya) - "Midtüllann" (Danimarka) - 4:1

# "Qarabağ" bizi həqiqətən təəccübləndirdi" - Boli

***"Ferentsvaroş"un (Macarıstan) futbolçusu Frank Boli Çempionlar Liqasının 3-cü təsnifat mərhələsində "Qarabağ"la Bakıda heç-heçə etdikləri ilk matç (1:1) haqqında danışıb.***

Qol.az xəbər verir ki, komadasının yeganə qolunun müəllifi olan futbolçu klubun rəsmi saytına açıqlamasında deyib: "Sərt rəqibə qarşı çətin matç oldu. Bu, asan deyildi. "Qarabağ" bizi həqiqətən təəccübləndirdi. Biz cərimə meydançasında əlimizdən gələni edib qol vurmalı idik. Məhz belə etdik. Söhbət nəticədən getmir, biz gələn həftəki cavab oyununa hazırlaşmalıyıq. Qol epizodu vaxtı çox şeyi görmədim. Topun qapıçının arxasından geri döndüyünü gördüm, baş vurmalı oldum. Xoşbəxtlikdən yaxşı yerdə idim. Bu, bizim üçün yaxşı nəticədir. Növbəti dəfə öz stadionumuzda, azarkeşlərimizin önündə oynayacağıq. Bu, bizə kömək edə bilər. Biz həmin oyuna köklənməliyik, kompakt oynamalıyıq. Rəqabətdə, təzyiqdə daha güclü olmalıyıq. O zaman uğur qazana bilərik".

Qeyd edək ki, bu komandalar arasında cavab görüşü avqustun 9-u Budapeştdə olacaq.

# "Qarabağ"ın müdafiə xəttindəki problemdən yararlanmalıyıq"

***"Ferentsvaroş"un (Macarıstan) futbolçusu Endre Botka Çempionlar Liqasının 3-cü təsnifat mərhələsində "Qarabağ"la Bakıda heç-heçə etdikləri ilk matç (1:1) haqqında danışıb.***

O, yerli mətbuata açıqlamasında deyib: "Slovakiyada "Slovan"a qarşı oynadığımız futbolu Bakıda da təkrarlamaq istəmirdik. Bilirdik ki, burada ağıllı oynamalı və nəticəyə fikir verməliyik. Hesabda önə çıxsaq da, təəssüf ki, "Qarabağ" dönən topdan sonra hesabı bərabərləşdirə bildi. Komandamızın bütün üzvləri matça konsentrasiya olunmuşdular. Rəqib futbolçular hücumda çox güclü oynasalar da, müdafiə xətlərində problemlərin olduğunu gördük. Cavab görüşündə bundan yararlanmalıyıq. Çempionlar Liqasının qrup mərhələsinə düşmək istədiyimiz üçün ev oyununda qalib gəlməliyik. Ümid edirəm ki, Macarıstanda həmin vaxt hava daha əlverişli olacaq, o qədər də bulanıq olmayacaq və bədənimizə bağladığımız hiroskopdan tüstü çıxmayacaq".




# "Santos"un sabiq futbolçusu "Turan Tovuz"da

***"Turan Tovuz" heyətinə yeni futbolçu qatıb.***

Apasport.az saytının məlumatına görə, bunu Premyer Liqa təmsilçisinin mətbuat xidməti açıqlayıb.

Qərblilər heyətini Ben Aziz Dao ilə gücləndirib. 23 yaşlı müdafiəçi ilə bir illik müqavilə bağlanıb.

Burkina-Fasodan olan legioner vətənində "Salitas", "Santos", "Duan", Qanada "Akkra Layons", Belarusda "Slutsk" və "Smorqon" komandalarında çıxış edib. Dao Burkina Fasonun 20 yaşlılardan ibarət milli komandasının da şərəfini qoruyub.

# "Barselona"nın qapıçısı İngiltərə klubunda

***"Barselona"nın qapıçısı Neto karyerasını İngiltərədə davam etdirəcək.***

"Bornmut" onun transferini razılaşdırıb. 33 yaşlı braziliyalı qarşıdakı iki gün ərzində Böyük Britaniyaya yollanacaq. O, tibbi müayinədən keçdikdən sonra müqavilə imzalayacaq.

Qeyd edək ki, Neto 2019-cu ildən "Barselona" forması geyinir. O, ötən mövsümün 4 matçında 5 qol buraxıb.

# "Neftçi" "Rapid"lə üz-üzə

***Azərbaycan Premyer Liqasının vitse-çempionu "Neftçi" avrokuboklarda növbəti oyununu keçirəcək.***

Apasport.az saytının məlumatına görə, Bakı klubu Konfrans Liqasının III təsnifat mərhələsində ilk görüşə çıxacaq.

Laurentsiu Regekampfın yetirmələri Avstriya "Rapid"i ilə üz-üzə gələcək. "Ağ-qaralar" rəqibini "Bakcell Arena"da qəbul edəcək. Ötən həftə bu stadionda "Aris"i 3 cavabsız qolla darmadağın edən "Neftçi" pley-offa yaxınlaşmaq üçün növbəti qələbəsini qazanmalıdır.

Qeyd edək ki, komandalar arasında cavab oyunu avqustun 11-də Vyanada keçiriləcək.

**Konfrans Liqası**

**III təsnifat mərhələsi**

**İlk oyun**

**4 avqust**

21:00. "Neftçi" (Azərbaycan) - "Rapid" (Avstriya)

Baş hakim: Dario Bel (Xorvatiya)

Bakı. "Bakcell Arena"

# "Kəpəz" belaruslu futbolçu transfer etdi

***"Kəpəz" heyətinə yeni futbolçu qatıb.***

Qol.az klubun mətbuat xidmətinə istinadən xəbər verir ki. Gəncə təmsilçisi belaruslu mərkəz müdafiəçisi Yeqor Xvalkonu trasnfer edib. 25 yaşlı oyunçu ilə bir illik müqavilə imzalanıb. Onun son klubu vətənində "Arsenal" (Zerjinsk) olub.

Qeyd edək ki, yeni mövsümdə Azərbaycan Premyer Liqasında mübarizə aparacaq "Kəpəz" daha əvvəl Tural Axundov, Elvin Yunuszadə, Kamran İbrahimov, Zamiq Əliyev, Mate Kvirkviya, Giorgi Kantariya, Əfran İsmayılov, Rauf Əliyev, Fərid Nəbiyev, Abdullahi Şuaybu, Mixeil Erqemlidze, Orxan Sadıqlı, Peyman Keşavarzini sıralarına cəlb etmişdi.